

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondu - insanların ümid çırağı



4

№ 241 (7166)

SƏS

28 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Həmrəylik və milli birliyimiz!



2

# Cənubi Qafqazla bağlı ABŞ-ın mövqeyi və 2025-Cİ İLİN GÖZLƏNTİLƏRİ




3

## Dəhşətli təyyarə qəzasına CƏMİYYƏTİN BAXIŞI



12

## Qara qutu nədir?



13

## Fatih Terim Ərəbistan klubunda – 6 aya 1,6 milyon dollar qazanacaq



16

## Virtual epidemiya - şərhçilik



12

## Türk mənşəli adların dəyişdirilməsi siyasəti



16

# Həmrəylik və milli birliyimiz!

## *Prezident İlham Əliyev diaspor quruculuğu işinə əsaslı töhfələr verib*

***Azərbaycan diasporu bu gün bir məslək və əqidə ətrafında yetərincə birləşərək, ölkəmizin mənafeyi istiqamətində ardıcıl iş aparır. Müasir dünyada müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Azərbaycan xalqının milli birlik və bərabərliyini ifadə edən 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur.***




Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək,



bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edildi. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Azərbaycan Respublikasının Ali Sovetinə müraciət etdi. Dekabrın 25-də isə Ali Sovetin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya azərbaycanlılarının həmrəyliyi günü elan olunması barədə qanun qəbul edildi.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil dövlətimizlə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərdi. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni istiqaməti idi. Bir il sonra 5 iyul 2002-ci il tarixində Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Bu gün imzalanan həmin rəsmi Sənəddən 22 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artıb. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçib, güclənib, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

Dünya azərbaycanlılarının milli birliyinin təşkilatçısı olan Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev diaspor quruculuğu işinə əsaslı töhfə vermiş oldu. Belə ki, 2006-cı il martın 16-da Dünya Azərbaycanlılarının II, 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayının keçirilməsi dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təntənəsi baxımından mühüm tarixi əhəmiyyət kəsb etdi. Eyni zamanda, qurultaylar bir daha dünya azərbaycanlılarının Prezident İlham Əliyevin, Azərbaycan dövlətinin ətrafında sıx birləşdiyini təsdiqlədi. Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı.

### AZƏRBAYCAN DÖVLƏTİ HƏR ZAMAN HƏMVƏTƏNLƏRİNİN YANINDADIR

Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək, milli-mənəvi dəyərlərimizi inkişaf etdirmək, xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsini gücləndirmək və bu sahəyə dövlət dəstəyinin ünvanlılığını təmin etmək məqsədilə Prezident İlham Əliyevin 2018-ci 6 iyul tarixli Fərmanı ilə Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradıldı. Daha sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə 2019-cu ildə "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı təsis edildi.

Bu gün əzəli torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan İkinci Qarabağ savaşında qazanılan tarixi Qələbəni bütün dünya azərbaycanlıları yaşadı. Hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı həmrəy oldu, bir yumruq ətrafında birləşdi. Bu ən böyük uğurlarımız sırasındadır. Əlbəttə ki, Azərbaycan dövləti hər zaman həmvətənlərinin yanındadır. Azərbaycan diasporunun belə mütəşəkil olması əlbəttə ki, diaspor quruculuğu sahəsində dövlətimizin apardığı ardıcıl siyasət, tətbiq edilən yeni proqramlar bəhrəsini verir. Görülən ardıcıl tədbirlər, dövlət tərəfindən işlənib hazırlanan konkret strateji istiqamətlər həmvətənlərimizin məskunlaşdıqları ölkələrin cəmiyyətlərində mövqelərini genişləndirməyə imkan yaradır.

Müharibədən sonra yaranmış yeni reallıqları, tarixi Zəfərin reallıqlarını, həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqda xaricdə yaşayan azərbaycanlıların, diaspor təşkilatlarının da üzərinə böyük məsuliyyət düşür. Azərbaycanın bir sıra dünya ölkələrdəki formalaşmış diaspor fəalları Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında mühüm rol oynayırlar. Yumruğu bir yerə vurmaları dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bir amal, məqsəd uğrunda birləşməsinin bariz nümunəsidir.



### XARİCDƏ YAŞAYAN SOYDAŞLARIMIZIN QÜRURUNUN ÜNVANI

Bütün Türk dünyasının mədəniyyət beşiyi qədim Şuşa şəhərində Dünya Azərbaycanlılarının V qurultayının keçirilməsi tariximizdə yeni səhifə açdı. 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaqların iştirak etdiyi Qurultayın açılışında Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev söylədiyi geniş nitqində bu mötəbər tədbiri Zəfər qurultayı elan etdi. Azərbaycan Prezidentinin Qurultayda söylədiyi nitqi postmünaqişə dövründə ölkəmizin mövqeyi ilə yanaşı, diaspor fəaliyyətinin inkişafı üçün də əsas hədəfləri aydın şəkildə özündə ehtiva etdi.

Qurultayda Prezident İlham Əliyev öz çıxışında "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir. Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün böyük xoşbəxtlikdir. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər", - deyib.

Azərbaycan xalqı 30 il davam edən işğala son qoymaq üçün öz Prezidentinin ətrafında birləşdi, öz birliyini, iradəsini və gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya haqlı mövqeyini sübut etdi. Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Bu gün isə artıq Azərbaycan xalqı bu torpaqlarının əsil sahiblərinin kim olduğunu bütün dünyaya nümayiş etdirir və bir daha özünün yaradıcı, sülhsevər və gələcəyə böyük ümidlərlə baxan xalq olduğunu hər kəsə sübut edir. Şuşa bu gün hər bir Azərbaycan vətəndaşının, eləcə də xaricdə yaşayan soydaşlarımızın qürurunun ünvanıdır.

Dünya Azərbaycanlılarının V Qurultayı da, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən davam etdirilən böyük strategiyanın, milli həmrəylik konsepsiyasının uğurlu davamının məntiqidir.

***Zümrüd BAYRAMOVA***

# Cənubi Qafqazla bağlı ABŞ-ın mövqeyi və 2025-ci ilin gözləntiləri

***Cənubi Qafqaz ölkələri ilə bağlı Amerikanın gələn ilki siyasətində ciddi dəyişikliklər gözlənilir. Trampın dəfələrlə qeyd etdiklərindən, bəyan etdiklərindən belə məlum olur ki, onun yanaşması da, mövqeyi də məhz Baydenin yanaşmasından və mövqeyindən kəskin şəkildə fərqli olacaq. Əslində, bir sıra faktlar da təsdiq edir ki, Aq Evin yeni sahibinin həqiqətən də fərqli yanaşması, xüsusən də Cənubi Qafqazla bağlı fərqli mövqeyi, eləcə də fərqli planları var. Bu isə onu deməyə əsas verir ki, Cənubi Qafqazla bağlı ABŞ-ın mövqeyi və məhz 2025-ci ilin gözləntiləri Bayden adminstrasiyası dövründə olduğu ilə eynilik təşkil etməyəcək.***




### Cənubi Qafqaza yanaşmasının tamamilə fərqli olacağı qənaətindəyik

Əslində, məhz region ölkələri ilə bağlı qarşıdan gələn ildə, 2025-ci ildə Tramp administrasiyasının fərqli yanaşacağına elə region ölkələrində də böyük əminlik hiss olunmaqdadır. ABŞ-ın Cənubi Qafqaza nəinki münasibətinin, ümumiyyətlə, baxışının belə dəyişəcəyinə əminlik heç də təsadüfi deyil və ilk növbədə Ağ Ev sahibinin dəyişməsi ilə bağlıdır. Çünki Trampın yanaşmasının məhz Baydenin yanaşmasından, yeni Cənubi Qafqaz regionunda sabitliyi pozmaq niyyətindən fərli olduğu artıq bəllidir. İndi artıq amerikalılar özləri də etiraf edirlər ki, bu vaxta qədər ABŞ-ın və Bayden adminstrasiyasının Gürcüstana münasibətdə mənfi rolu göz önündə olub və bunu təkzib etmək olmaz. Həmçinin nəzərə də alınır və əminlik də var ki, Amerikanın Cənubi Qafqaz ölkələrinə münasibətdə xarici siyasətlə bağlı yanaşmalarını Tramp adminstrasiyası kökündən dəyişdirəcək. Təbii ki, bu əminlik ilk növbədə elə məhz Ağ Evin yeni sahibinin vədlərindən, ən azından bəyanatlarından və dediklərindən yaranır. Digər tərəfdən də axı rəsmi Vaşinqtonun bundan əvvəlki yolu, yəni Bayden adminstrasiyasının tutduğu yolu tutacağı heç bir məntiqə sığışmır və Tramp hakimiyyətinin bunun əksinə addımlar atacağı ilə bağlı kifayət qədər təsdiqedici məqamlar var.

Həqiqətən də maraqlıdır ki, görəsən, Amerikanın yeni seçilən prezidenti Donald Trampın rəhbərlik etdiyi dövrdə, xüsusən də 2025-ci ilin yanvarından sonra Cənubi Qafqaz regionunu nə gözləyir? Yəni, Cənubi Qafqaz regionu üçün növbəti ilin gözləntiləri nədən ibarətdir? Məsələn, Cənubi Qafqazın bütün ölkələrinə bərabər və ədalətli diplomatik yanaşma prinsipini Bayden administrasiyasının pozmasının bir daha təkrarlanmasının şahidi olan olacaqmı? Ermənistanı silahlandırmaq və onu Azərbaycandan "qisas" almağa hazırlamaqdan ibarət olan Bayden adminstrasiyası "ənənələri" 2025-ci ildə də davam edəcəkmi? Yaxud, Gürcüstanı daxildən parçalayıb, daxilində qarışıqlıq, xaos yaradıb, dövlət çevrilişinə sürükləyərək, ölkəni dağıtmaq üçün olan planlar gələn ildə yenə də ortaya atılacaqmı? Ən azından bu suallar Cənubi Qafqaz ölkələrini və həmin ölkələrin vətəndaşlarını ən çox maraqlandıran suallardır. Bunula belə ümid edilir ki, artıq sadalanan tendensiyalara bir daha rast gəlinməz və bundan sonra Amerikanın məhz Cənubi Qafqaza yanaşmasının tamamilə fərqli olacağı qənaətindəyik.

### Regionda sabitliyin pozulması cəhdi olmayacaq və Azərbaycanla münasibətlər Trampın əvvəlki hakimiyyəti dövründəki kimi davam edəcək

Dünyanın bir çox siyasətçiləri, analitikləri, ekspertləri həm Bayden adminstrasiyanın keçmiş fəaliyyətini təhlil edirlər, həm də bunun ardınca da Tramp adminstrasiyasının fərqli yanaşma sərgiləyəcəyi qənaətində olduqlarını açıq şəkildə bildirirlər. Bu siyasətçilər, analitiklər, ekspertlər arasında amerikalılar da var. Məsələn, amerikalı analitik, geosiyasət və təhlükəsizlik sahəsində ekspert, "The Washington Outsider" qəzetinin baş redaktoru İrina Tsukerman Tramp adminstrasiyasının prioritet olaraq milli təhlükəsizlik və ABŞ maraqları üçün ən böyük iqtisadi təhlükə hesab edilən məsələlərə diqqət edəcəyini deyir. Onun sözlərinə görə, bütün dünyada müşahidə edilən antidemokratik əməliyyatlarda Baydenin ətrafının iştirak etməsinin əksi olaraq, Tramp adminstrasiyası bütün bunlara qətiyyən yol verməyəcək. Əlalxüsus da, Gürcüstanda hər hansı dövlət çevrilişi cəhdlərinin təkrarlanmayacağı qənaətinə gəldiyini vurğulayan "The Washington Outsider" qəzetinin baş redaktoru həmçinin qeyd edir ki, Tbilisi hər hansı çevriliş üçün bundan sonra məkan sayıla bilməz.

İrina Tsukermanın sözlərinə görə, regionda sabitliyin pozulmasına hərhansı bir cəhd olunmayacaq və Azərbaycanla münasibətlər də bundan əvvəlki kimi, yəni, Trampın əvvəlki hakimiyyəti dövründə olduğu kimi davam edə bilər. "Tramp Cənubi Qafqazda sabitliyi hər hansı şəkildə pozmağa çətin ki, cəhd etsin. Amerikanın iqtisadi imkanlardan yararlanmaq və ABŞ iqtisadiyyatının imkanlarını gücləndirmək onun xeyrinədir və bunun üçün də, qeyd olunduğu kimi, rəsmi Vaşinqton bundan sonra milli təhlükəsizlik və ABŞ maraqları üçün ən böyük iqtisadi təhlükə hesab edilən məsələlərə diqqət edəcək. Təbii ki, Trampın Azərbaycanla bundan əvvəl müsbət münasibətləri olub və rəsmi Bakının işlərinə qarışmaması təcrübəsi də danılmazdır. Doğrudur, Trampın bundan əvvəlki dəfə Amerikaya rəhbərlik etdiyi dövrdə ABŞ Azərbaycana öz ərazilərini qaytarmaq məsələsində kömək etməyib, lakin federal səviyyədə separatçılara axı kömək də etməyib. Əgər öz kabinetində əvvəlki müşavirlərini saxlamış olsaydı, Trampın ikinci müddətində yanaşmasının yenə də məhz belə olacağını tam əminlikdə demək olardı", deyə "The Washington Outsider" qəzetinin baş redaktoru İrina Tsukerman vurğulayıb. Bir sözlə, məhz İrina Tsukermanın timsalında amerikalılar özləri də Trampın Baydendən tamamilə fərqli yanaşma sərgiləyəcəyinə, xüsusən də Cənubi Qafqazda sabitliyin pozulması üçün heç bir cəhd etməyəcəyinə əmindirlər. Hər halda, amerikalıların özlərinin də 2025-ci illə bağlı gözləntilərinin belə olduğu göz önündədir və ümid edirik ki, Cənubi Qafqazla bağlı ABŞ bundan əvvəlki "dağıdıcı" niyyətində olmayacaq.

Ən azından bölgədə təzyiqin azalacağı kimi bir proqnoz və gözləntilər var

Xarici agentlər, həmçinin LGBT məsələsi ilə bağlı qanunlara dair qərarlarda, xüsusən də Dövlət Departamenti və onun nümayəndələrinə qarşı hücumlar məsələsində Amerikanın bu vaxta kimi nə qədər "fəal" ğunu və bu ölkələrin Amerikaya münasibətinin mənfi istiqamətdə necə dəyişdiyini Ağ Evin yeni sahibi Donald Tramp çox yaxşı, çox gözəl bilir. Ona görə də Trampın gəlişindən sonra mən Vaşinqton, Tbilisi və Bakı arasında konstruktiv əməkdaşlıqla dolu ayıq münasibətlərin bərpasını səbirsizliklə gözləyirəm", deyə Arkadi Nozadze öz fikrini yekunlaşdırıb.

Cənubi Qafqazla bundan sonra Amerikanın münasibətlərinin hansı şəkildə ola biləcəyi ilə bağlı azərbaycanlı politoloqlar da kifayət qədər fikirlər bildiriblər və həmin fikirlərin böyük əksəriyyətində 2025-ci ildən başlayaraq Bakı ilə Vaşinqton arasında çox səmərəli, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin olacağı vurğulanır. Məsələn, politoloq Zaur Məmmədovun sözlərinə görə, Donald Trampa ümidlər böyükdür. "Ümid edirik ki Tramp burdakı proseslərlə bağlı ondan əvvəlki siyasi liderdən fərqli olaraq bir qədər fərqli, daha obyektiv və ədalətli mövqe nümayiş etdirəcək. Ona görə ki, ABŞ-ın Cənubi Qafqaza və Mərkəzi Asiyaya yolu məhz Azərbaycandan keçməlidir", deyən politoloq bundan sonrakı hadisələrin artıq ABŞ Dövlət Departamentinin siyasətinin hansı istiqamətlərdə davam edəcəyindən asılı olduğunu olduğunu yaxşı bilirik. Onu da bilirik ki, bu mövzuda bəyanatlar və ümumiyyətlə, bu bəyanatların bəziləri Cənubi Qafqazda siyasi təzyiq forması olaraq qəbul olunub. ABŞ tərəfindən yeni-yeni sanksiyaların tətbiq edilməsi, "sanksiya dalğası" yaradılması region ölkələrinin daxili işlərinə qarışmaq məqsədi ilə olub. Amma indi analitiklərin, ekspertlərin əksəriyyəti belə hesab edirlər ki, bundan sonra ABŞ, daha doğrusu, Tramp komandası region ölkələrinin işlərinə qətiyyən qarışacaq kimi görünmürlər. Ən azından bölgədə təzyiqin azalacağı kimi bir proqnoz və gözləntilər var.

### Cənubi Qafqaz ölkələri ilə xeyirxah və düşünülmüş siyasət qurulacağı qənaətində olanlar çoxluq təşkil edirlər

Vaşinqtonun məhz Cənubi Qafqaz ölkələri ilə Bayden administrasiyasının siyasətindən fərqli, xeyirxah və düşünülmüş siyasət quracağı qənaətində olanlar çoxluq təşkil edirlər. Xüsusən də region ölkələrinin analitikləri, ekspertləri və politoloqları arasında bu qənaətdə olanlar daha çoxdurlar. Məsələn, gürcü politoloq və analitik Arkadi Nozadze hesab edir ki, Trampın fərqli rasionallığı məhz sərfəli və konstruktiv əməkdaşlığın bərpasına öz töhfələrini verəcək. "Trampın siyasəti, məncə, Bayden komandasının çirkli, bulanıq "hekayələrindən" aşkar rasionallığı ilə fərqlənir. Əslində Donald Tramp seçkidə elə buna görə də qalib gəlib. Yəni, məhz öz strategiyasına görə qələbə qazanıb. Bu strategiyanın isə nədən ibarət olduğu artıq dəfələrlə bəyan edilib və Trampın prioritetləri arasında Cənubi Qafqaz ölkələrində hakimiyyətin dəyişdirilməsi üzrə xüsusi əməliyyatlar yox, məhz sərfəli əməkdaşlıq olduğu hər kəsə bəllidir. Əlbəttə ki, Gürcüstanda və Azərbaycanda Baydenin belə "məxsusi metodlarının" necə uğursuzluğa düçar olduvurğulayıb.

### Cənubi Qafqazla, eləcə də ölkəmizlə bağlı Amerikanın ədalətli addımlar atacağına, ədalətli mövqe sərgiləyəcəyinə əminlik var

Əslində, həqiqətən də ABŞ-da respublikaçı Donald Trampın yenidən prezident seçilməsi bir sıra ümidlər yaradıb. Seçki kampaniyası zamanı verdiyi bəyanatlar xüsusilə onu deməyə əsas verir ki, Ağ Evin yeni lideri Baydenin, onun administrasiyasının kobud səhvlərini təkrarlamayacaq. Məhz elə bu baxımdan da Azərbaycan-ABŞ münasibətlərində də 2025-ci ildən yeni səhifənin açılacağını cəsarətlə söyləmək olar. ABŞ-Azərbaycan münasibətlərinin uzun tarixinin olmasını, müstəqillik əldə etdikdən bu vaxta qədər Bakının Vaşinqtonla əlaqələr qurmasını, ötən illər ərzində Birləşmiş Ştatlarla bir çox mühüm sahələrdə sıx əməkdaşlıq edilməsini, təhlükəsizlik məsələsində, terrorla mübarizədə, enerji məsələlərində Azərbaycanın öz töhfələrini verməsini Co Bayden adminstrasiyasının bir növ görməzdən gəlməsinin nəticələrinin necə olduğunu heç şübhəsiz ki, Tramp adminstrasiyası çox yaxşı görür. Ona görə də bunun təkrarlanacağı qənaətində deyilik. Belə başa düşürük ki, Donald Trampın yenidən hakimiyyətə qayıtması fonunda məhz 2025-ci ildən başlayaraq ABŞ-Azərbaycan münasibətləri müsbət istiqamətdə öz dəyişiklikləri ilə diqqəti cəlb edəcək. Təkcə Azərbaycanla deyil, bütövlükdə Cənubi Qafqazla bağlı Amerikanın çox düzgün, ədalətli addımlar atacağına, doğru yanaşma, haqlı mövqe sərgiləyəcəyinə əminlik var. Əminik ki, Cənubi Qafqazla bağlı ABŞ-ın mövqeyi və 2025-ci ilin gözləntiləri region ölkələrini və vətəndaşlarını qane edəcək.

***İnam Hacıyev***






# Heydər Əliyev Fondu - insanların ümid çırağı





***Əhalinin sosial həyatının dəyişdirilməsi, onun rifahının təmin edilməsi, aztəminatlı təbəqələrə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması ölkəmizdə dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Sosial müdafiəyə ehtiyacı olan insanların maddi durumunun yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərlə yanaşı, onların zəruri tələbatlarının ödənilməsi üçün də dövlət büdcəsindən ayrılan vəsaitlərin miqdarı artırılıb. Dövlətin maraqları nəzərə alınaraq görülən bu işlərdə əsas məqsəd insanların gələcəyini təmin etməkdir. Bütün bunlarla yanaşı, əhalinin sağlamlığının təmini də görülən işlərin davamı olaraq həyata keçirilir.***

Müstəqil Azərbaycanda Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti ilə sosial, iqtisadi, sahələrdə həyata keçirilən davamlı tədbirlər bəhrəsini verir. Mövcud potensial, baza əsasında iş prinsiplərinə uyğun bir şəkildə fəaliyyət dairəsini genişləndirən Heydər Əliyev Fondu xüsusilə humanitar missiyada fəaliyyət proqramının həyata keçirməklə bütün yaş həddində olan vətəndaşdların qayğı və problemlərin təminatçısına çevrilib. Məlum olduğu kimi, fəaliyyətdə olduğu zaman məsafəsində ölkə ərazisində uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilib. Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Azərbaycanda əhalilinin sağlamlığının qoruyucusuna çevrilib. Hər bir insanın ümid, pənahına çevrilib. Bu da əsassız deyil. İnsanlara qayğı, ehtiram, həssas münasibət Heydər Əliyev



Fondu ilə cəmiyyət arasında bir körpü salıb. Minlərlə insanın qəlbində bir ümid çırağı yandırılıb. Ümidlər boşa çıxmır. Mehriban xanım Əliyevanın mərhəməti, xeyriyyəçiliyi, humanizmi bu münasibətin formalaşmasına səbəb olub.

## NÜFUZLU TİBB ŞİRKƏTLƏRİ İLƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Fondun əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması, mövcud problemlərin aradan qaldırılması, vətəndaşlarımızın ölkədə və xaricdə müalicəsinə kömək məqsədi ilə həyata keçirdiyi irimiqyaslı proqram layihələri nəticəsini göstərməkdədir. Bu gün ölkəmizdə Fondun humanitar yardımı çərçivəsində əldə etdiyi böyrək hemodializ aparatları ilə bir sıra tibb müəsisələrini təmin etmişdir. Tibbi avadanlıqlar Almaniyanın ”Fresenius Medical Care” şirkəti tərəfindən Heydər Əliyev Fonduna bağışlanan humanitar yardımdır. ”Fresenius Medical Care” şirkəti ilə 2006-cı ildən başlanan əməkdaşlığın uğuru bahalı hemodializ aparatlarının hədiyyə olunmasına gətirib çıxarmışdır. Bununla yanaşı, Mehriban xanım Əliyevanın dünyanın bir sıra nüfuzlu tibb şirkətləri ilə beynəlxalq əməkdaşlığı çərçivəsində Fonda xeyli tibbi avadanlıq daxil olunmuşdur. Bunun sayəsində daha çox xəstə dövlət tərəfindən hemodializlə təmin olunur. Artıq regionlardakı müalicə ocaqlarında da belə aparatlar quraşdırılmışdır.

## “DİABETLİ UŞAQLARA ƏN YÜKSƏK QAYĞI” LAYİHƏSİ DAVAMLIDIR

Heydər Əliyev Fondunun ”Diabetli uşaqlara ən yüksək qayğı” layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər növbəti dəfə insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsilə şəkərli diabet xəstələrinə verilir.

Əhalinin səhiyyə problemlərinin aradan qaldırılmasında yaxından iştirak edən Heydər Əliyev Fondu 2004-cü ilin dekabrından etibarən ”Diabetli uşaqlara ən yüksək qayğı” layihəsini həyata keçirir. Layihə üzrə şəkərli diabetdən əziyyət çəkən şəxslərə dövlət tərəfindən göstərilən qayğıya dəstək məqsədilə uşaq və yeniyetmələr müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Ölkəmizdə uşaqların ən keyfiyyətli ”Tresiba” insulini ilə təmin olunması böyük əhəmiyyət kəsb edir. Layihə çərçivəsində son bir il ərzində 1500-ə yaxın uşağın həyat keyfiyyəti yaxşılaşdı. ”Tresiba” qanda insulinin miqdarının kəskin düşməsini, yəni hipoqlikemiyanın baş verməsinin qarşısını almağa kömək edir.

***Ardı Səh. 5***

# Heydər Əliyev Fondu - insanların ümid çırağı





Əvvəli-Səh-4

Uşaqların "Tresiba" insulini ilə təminatı Heydər Əliyev Fondunun, onun prezidenti Mehriban Əliyevanın uşaqlara göstərdiyi qayğının bariz nümunəsidir. Layihə çərçivəsində insulinlə təminatla yanaşı, həm valideynlər, həm də uşaqlar diabet haqqında, özlərinə necə nəzarət etməli olduqları barədə məlumatlar əldə edirlər. Bu layihə Heydər Əliyev Fondunun diabetlə bağlı həyata keçirdiyi ilk layihə deyil. Azərbaycanda ilk dəfə uşaqlar insulin üçün şpris qələmlərlə Heydər Əliyev Fondu tərəfindən təmin olunublar.

İnsulin insana fəsadsız və uzun yaşamağa kömək edir. Fəsadsız yaşamaq üçün qanda olan qlükozanın idarə edilməsi də vacibdir. Onu da insulinlə idarə etmək mümkündür. Uşaqlarda kəskin insulin çatışmazlığı yarana bilir. Onlarda qanda insulin ya heç olmur, ya da cüzi miqdarda aşkarlanır. Həmin uşaqların insulinlə təminatı vacibdir. Qısamüddətli və uzunmüddətli insulin mövcuddur. Qısamüddətli insulin yeməklər üçün istifadə olunur, uzunmüddətli isə bütün sutka boyu qanda insulinin yetəri səviyyədə olmasına kömək edir. Heydər Əliyev Fondu imkan yaradıb ki, ölkəmizdə şəkərli diabetdən əziyyət çəkən uşaqları ən yeni və ciddi yoxlamadan keçən uzunmüddətli insulinlə təmin olunsunlar. Həmin insulinlər sutka və gecə ərzində hipoqlikemik vəziyyətlərin başvermə ehtimalını azaldır.

Heydər Əliyev Fondunun genişmiqyaslı layihələrini davamı olaraq səhiyyə sahəsində humanitar aksiyaları davamlı xarakter alır. Fransanın ən güclü əczaçılıq qrupu olan "Servyer" şirkəti ilə birgə diabetli insanın müalicəsini dərmanla təmin etmişdir. Onlardan biri "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsidir. Fondda layihənin təqdimatından sonra ictimaiyyətin, yerli və xarici təşkilatların diqqəti ölkəmizdə diabetli uşaqların probleminə cəlb edilmiş, bu xəstəliyə tutulmuş 14 yaşadək uşağın dərmanlarla təmin olunmasındakı çətinliklər aradan qaldırılmışdır. Bu iş davam etdirilir, diabetdən əziyyət çəkən uşaqlar və böyüklər insulin, digər dərmanlar və qlükometr sarıdan korluq çəkmirlər. Artıq Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsilə şəkərli diabet xəstələrinə verilir. Bu gün ölkəmizdə uşaqların ən keyfiyyətli "Tresiba" insulini ilə təmin olunması çox böyük əhəmiyyət kəsb edir. Uşaqların "Tresiba" insulini ilə təminatı Heydər Əliyev Fondunun uşaqlara göstərdiyi qayğının bariz nümunəsidir.



## SƏHİYYƏ SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR FONDUN ƏHALİNİN SAĞLAMLIĞINA VERDİYİ TÖHFƏLƏRDİR

Fondun dəstəyi ilə ölkəmizdə uşaqlar üçün qastroenteroloji sanatoriya, psixo-nevroloji mərkəz istifadəyə verilmişdir. Beynəlxalq əməkdaşlıq çərçivəsində dünyanın tanınmış şirkətləri tərəfindən fonda təqdim olunmuş hemodializ və endoskopik aparatlar hazırda müvafiq tibb müəssisələrində uğurla tətbiq olunur. Fondun təşəbbüsü ilə paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Belə ki, fond tərəfindən Türkan qəsəbəsində poliklinikanın və təcili tibbi yardım stansiyasının inşası, Şüvəlan qəsəbəsində 31 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının əsaslı təmiri, Ucar rayonunun Qazıqumlaq kəndində Akademik Zərifə Əliyeva adına Xəstəxananın əsaslı bərpası, Zirə Müalicə Diaqnostika Mərkəzinin yenidən qurulması, Qala qəsəbəsində ilk xəstəxananın - 29 nömrəli BirləşmişŞəhər Xəstəxanasının filialının inşası, Bakıda Psixonevroloji Uşaq Mərkəzinin inşası, "Təbəssüm" uşaq sanatoriyasının əsaslı təmiri və yenidən qurulması və s. xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzinin inşası və s. həyata keçirilmişdir

## "TALASSEMİYASIZ HƏYAT NAMİNƏ"

Onu da bildirək ki, səhiyyə yönümlü layihələr sırasında Heydər Əliyev Fondunun fəaliyyətində uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər də yer alır. Paytaxtımızda inşa olan Talasamiya Mərkəzi Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirildi. Burada quraşdırılan avadanlıqlar müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri oktyabrın 31-də Talassemiya Mərkəzində olublar. Mehriban Əliyeva tibb müəssisəsindəki transplantologiya şöbəsində, yeni açılan reanimasiya şöbəsində və böyüklər üçün stasionar şöbədə olub, burada müalicə alan uşaqlarla, tibb işçiləri ilə söhbət edib, müalicə prosesinin gedişi ilə maraqlanıb. Talassemiya Mərkəzi bu xəstəliyə düçar olanların müalicəsində mühüm rol oynamaqla yanaşı, həm də xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstəkdir.

Qeyd edək ki, tibb müəssisəsində görülən işlər, aparılan islahatlar, burada müalicə alan xəstələrin səhhəti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən daim diqqət mərkəzində saxlanılır. Fondun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa edilən Talassemiya Mərkəzində xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi, Mərkəzin maddi-texniki bazasının gücləndirilməsi üçün görülən tədbirlər talassemiya xəstəliyinin profilaktikasında əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, 2009-cu ildən istifadəyə verilən Talassemiya Mərkəzi Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısının alınması istiqamətində əhalinin maarifləndirilməsinə və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

Fond səhiyyənin müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi işində də yardımçı olur, təbabətin ən müasir metod və nailiyyətlərindən istifadə üçün beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir. Bu əməkdaşlıq əsasında artıq bir neçə lokal layihə həyata keçirilmişdir. Səhiyyə sahəsində görülən işlər, həyata keçirilən layihələr Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdir. Bu qayğı humanizmin ən nümunəvi göstəricisidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Kredit kartının faydası çoxdur, ya zərəri?

***Ətrafımızda davamlı olaraq kredit kartı borcu olan, ödəyə bilməyən, beləliklə də, borcu günü-gündən artan insanları görür və ya eşidirik. İstər-istəməz kredit kartının əslində təhlükəli bir şey olduğu qənaətinə gəlirik. Bəs, əslində necədir?***



Kredit kartı nağd pula alternativ ödəniş vasitəsidir, istifadə etdikdən sonra təyin edilmiş müddət ərzində xərclərin banka aylıq və ya hissə-hissə ödənilməsi lazımdır. Əslində, kredit kartı borcverən deyil, sadəcə, nağd pula alternativ olan ödəniş alətidir. Əgər sizdə olmayan və ya olmayacaq pulla almaq yerinə nəsə almaq üçün kredit kartınızdan istifadə etsəniz, o zaman onu borc alətinə çevirəcəksiniz və beləcə həm təhlükəsini, həm də zərərinizi görəcəksiniz.

Kredit bank kartı debet bank kartından fərqli olaraq tamamilə başqa bank məhsuludur. Kredit kart sahibi də ondan mağazada və internetdə ödəniş etmək, bankomatdan nağd pul çıxarmaq, digər istifadəçiyə pul göndərmək üçün istifadə edə bilər. Lakin müştəri bütün bunları bank vəsaitləri hesabına həyata keçirir. Yəni bu o deməkdir ki, müştəri istənilən zaman bankın ona təqdim




etdiyi kredit xəttindən istifadə edə, xərclədiyi vəsaitləri isə bir qədər gec qaytara bilər.

Kredit kartı öz xüsusiyyətlərinə görə debet kartlarından fərqlənir. Və bankdan məhz belə bir məhsul əldə edərkən daha sonradan xoşagəlməz vəziyyətə düşməmək üçün bütün nüansları dəqiqləşdirmək lazımdır. Kredit kartının əsas xüsusiyyətləri kredit limiti, güzəştli dövr və faiz dərəcəsidir. Kredit limiti – müştərinin müəyyən komissiya, yəni faiz dərəcəsi qarşılığında kartdan maksimum xərcləyə biləcəyi pul məbləğidir. Güzəştli dövr – kredit vəsaitlərindən faizsiz olaraq istifadə edilməsi mümkün olan zamandır. Bu dövr, adətən, 30-100 gün təşkil edir.

Müştəri kredit kartı əldə edərkən faiz dərəcəsi ilə yanaşı, ödəyəcəyi əlavə komissiya haqqları ilə də yaxından tanış olmalıdır. Bu komissiya haqqına bankomatdan nağd pul çıxarmaq, pul köçürməsinə görə komissiya, aylıq komissiya daxildir. Bununla belə, adətən ticarət-xidmət müəssisələrində nağdsız əməliyyatlara görə komissiya haqqı tutulmur.

Beləliklə, kredit kartı çox rahat hesablaşma aləti olmaqla, kifayət qədər də bahadır.

Xərclədiyiniz borc vəsaitlərini nə qədər tez bir müddətdə geri qaytara bilsəniz, bank vəsaitlərini istifadə etdiyinizə görə bir o qədər az ödəyəcəksiniz. Kredit kartı üzrə borcu ödəmək üçün, sadəcə olaraq, bankomatda və yaxud bankın kassasında onun hesabını doldurmaq kifayətdir. Kredit kartları da debet kartları kimi müxtəlif ödəniş sistemlərinin, maqnit zolaq və yaxud çiplə təchiz edilmiş, təmassız texnologiyanı dəstəkləyib-dəstəkləməyən ola bilər.

Maraqlıdır, kredit kartı və taksit kart arasındakı fərqlər nədir? Taksit kartı müştərilərə banklarla partnyor olan şirkətlərdə, mal və xidmətlərin dəyərini münasib şərtlərlə ödəmə imkanı təqdim edir. Belə ki, istifadə edilən məbləğ faiz hesablanmadan, partnyordan asılı olaraq 1, 2, 3, 6, 12, 18 və ya 24 aya ödənilir. Kart üzrə borc müvafiq aylar ərzində hər ayın müvafiq tarixinədək banka ödənilir. Ödəniş müddətində borca faiz hesablanmır, lakin gecikmə halları zamanı cərimə faizi hesablanır.

Kredit kartının üstünlükləri isə güzəşt müddəti – kredit vəsaitindən faizsiz olaraq istifadə edilməsi mümkün olan müddət kəsiyidir. Kredit limiti – müştərinin müəyyən faiz



dərəcəsi qarşılığında kartdan maksimum xərcləyə biləcəyi məbləği əks etdirir. Faiz dərəcəsi – güzəştli dövr bitdikdən sonra hesablanmış faiz məbləğinin dərəcəsidir.

Kredit kartı üçün müraciət etdikdə kredit üzrə mütəxəssis müştərinin aylıq gəlirlərini və xərclərini dəqiqləşdirir. İlkin təhlil aparıldıqdan sonra müştəriyə limit haqqında məlumat təqdim olunur. Qeyd edək ki, hal-hazırda ölkədə əksər banklar müştərilərinə kredit kartı məhsulunu təqdim edir. Limitin azaldılması və ya artırılması üçün banka müraciət etmək lazımdır.

Bir neçə il əvvəl ABŞ-ın Pittsburq şəhərindəki Carnegie Mellon Universitetində aparılan araşdırmada nağd pul xərcləyənlərin ödəniş anında beyinlərində ağrı və narahatlıq hiss etdiyi, lakin kredit kartları ilə xərcləmələrdə bunun aşkar edilmədiyi qeyd edilmişdi. Bu da ödənişin nağd pul yerinə kartdan xərclənməsi ilə əlaqələndirilir. Tədqiqat aparan alimlər kredit kartlarının insanlara dərman təsiri bağışladığını deyirlər. Dolayısı ilə nağd ödənməyən üsulla məhsul əldə etmək insanları rahatladır. Lakin sonra geri ödəniş prosesi problemli olarsa borc batağı təhlükəsi də yaranır.

Əslində, kredit kartı ondan istifadə etməyi bilənlər üçün faydalıdır. Sadəcə, onun sizə faydalarını və zərərlərini yaxşı ayırd etməyiniz lazımdır. Tutaq ki, bu gün kredit kartınızla alış-veriş edirsiniz, xərclədiyiniz məbləği təyin edilmiş müddət ərzində kartınıza geri qaytardığınız halda heç bir faiz hesablanmır. Lakin durmadan xərcləsəniz, həm nağdlaşmada, həm alış-verişdə kredit kartından istifadə etsəniz, müddət bitdikdə xərclədiyiniz məbləği yerinə qoya bilməsəniz ciddi maliyyə problemləriniz yarana bilər.

***Lalə Mehralı***

# Tanrıya açıq məktub- 5-ci hissə

## *Şeytana uduzulmuş bəşəriyyət?*

**Əvvəli ötən saylarımızda**

***Uca Tanrım! Son vaxtlar, yəni bizim vaxtımızla 2-3 minillik bundan əvvəl Sənin haqqında bəndələrin arasında müəyyən şayiələr yaranıb. Babalı deyənlərin boynuna, belə rəvayət eləyirlər ki, guya Sən bu planeti Şeytana mərcdə uduzubsan. Bunların dediklərinə görə, guya Adam adlı məxluq formasını xəlq eləyəndə və ilahi dərgahda ilk prototipin prezentasiyasını keçirəndə Şeytanla Sənin aranda konsensus baş tutmayıb və nəticədə yüngülvari konfrantasiya olub.***




Şayiələrə görə, Sən insanı yaradılışın əşrəfi elan edib, onun əksər məxluqatdan üstün olduğunu bəyan edibsən. Üstəlik, bəzi müqəddəs kitablarda yazılanlara görə, insanı Özünə bənzər yaratdığını, Özündə olan keyfiyyətlərdən müəyyən qədər ona da verdiyini deyib, bütün mələkləri ona baş əyməyə dəvət edibsən. Bu zaman Sənin lovğa mələklərindən biri-Şeytan həzrətləri tribunaya qalxaraq öz kəskin etirazını bildirib. Digər mələklər də etirazlarını bildirəndə, Sən deyibsən ki "mən bildiyimi siz bilmirsiniz".

Lakin bu hadisədən kefinə soğan doğrandığına görə, Şeytana deyibsən ki, gec-tez sən də insanın böyüklüyü qarşısında baş əyəcəksən. Şeytan da deyib ki, onda mənə icazə ver, Sənin bu yaratdığının iç üzünü açım qoyum ortaya. Onda görərsən bizmi üstünük, yoxsa insanmı. Deyilənlərə görə, Sən də qayıdıbsan ki, yaxşı razıyam, onu sizdən güclü yaratmışam, özü təslim olmadıqca, Sən ona heç nə edə bilməzsən. Görək, insan oğlu sənəmi tapınacaq, Mənəmi?

Bax bütün bu həngamələrin əsası da, elə oradan başlayıb. Şeytan hikkəsindən başlayıb insanı yoldan çıxarmaq üçün onun zəif yerlərini axtarmağa. Bədbəxtlikdən, bu zəif nöqtəni tapmaq elə də çətin olmayıb. Şeytan "əfəndi" görüb ki, insanın ən zəif yeri onun nəfsi və maddi hissləridir. Elə bunlardan da ikiəlli yapışıb başlayib işə. Hər gözəldə bir eyib olar misalı, bizim eybimiz də sən demə lap biabırçı eyib imiş.

Nə olsun ki, Sən bütün Müqəddəs Kitablarda (məs. Avesta, İncil, Baqavad-Qita, Quran, Tövrat, Zəbur və s.) maddi nemətlərə aldanmamağı, maddi kainatdan qurtulub əbədi dərgaha qayıtmaq üçün ruhi inkişafı məsləhət görmüsən, bu sözləri heç vecinə alan da yoxdur. İnsan oğlu acığa düşüb Sənin qadağan etdiklərin şeyləri edir və bundan zərrə qədər də narahatçılıq keçirmir. Hərəkətlərindən belə çıxır ki, Sən ki bizi cənnətdən qovdun, biz də acıqnan burda hər şeyi tərsinə edəcəyik.

Bu proses hansı nəticələrə gətirib çıxarıb, Özün məndən yaxşı bilirsən. İndi imanlı bəndələrin gözləyir ki, görək Tanrı Şeytana uduzmuş bəşəriyyəti xilas etmək üçün hansı yola əl atacaq. Bəzi Müqəddəs Kitablarda yazılanlara görə, guya bu və ya digər məsələlərə Qiyamət günündə əncam çəkiləcək. Bu qiyamət günü də qalıb qiyamətə, gəlib çatmır.

Sən Özün bütün Kitablarında demisən ki, əsas insanın qəlbi, ruhudu, bədəni paltar kimi bir şeydir. Bütün bunları deməkdə məqsədim ondan ibarətdir ki, qiyamət gününədək bizim nəinki bədənimiz, hətta belə getsə, ruhumuz da çürüyüb məhv olacaq. Onda Sən bizi hardan tapacaqsan ki, mükafat və ya cəzamızı da verəsən?

Xudaya Pərvərdigara, bilsən Sənə şikayət edilsəsi nə qədər məsələ var, qulaqlarını tutub qaçarsan. Ona görə də, mən hamısını yox, bir neçəsini Yadına salmaq cəsarətində bulunuram.

Öncə ərz edim ki, hazırda bizim dünyada mənəviyyatla mənəviyyatsızlıq arasında açıq müharibə gedir. Bu döyüşdə mənəviyyatsızlıq tərəfdar çoxluğu ilə qalib gəlməkdədir. Sənin nəsihət etdiyin mənəvi dəyərlər yerdəki fani "tanrıçalar" tərəfindən tamam dəyişdirilib. İndi şöhrət və sərvət qazanmaq üçün bəzi qadınlar ortalıqda (və ya gizlində) soyunaraq namusundan, bəzi kişilər isə, pula görə kiminsə qarşısında alçalaraq ləyaqətindən keçməyə məcbur olurlar. İndi qadınlar və qızlar Sənin yaratdığın təbii simanı özlərinə yaraşdırmayıb, süni kosmetik vasitələr və cərrahi əməliyyatlar vasitəsilə qondarma gözəllik yaradırlar. İndi müqəddəs elan etdiyin anaları daha öz uşaqlarına süd vermirlər ki, "fiquram pozular". Süni uşaq (və böyük) qidaları gələcək "hissiz və duyğusuz süni insanlar ordusu"nu yaratmaqda, fırıldaqçılar yeni-yeni süni qidalar kəşf etməkdə, alimlər harayhəşir qoparmaqda, dövlət rəhbərləri isə susmaqda...

İndi əxlaqsızlar çıxıb televizordan xalqa mənəviyyat dərsi keçirlər, oğrular doğruları mühakimə edirlər, kiçiklər böyükləri danlayırlar, yaltaqlar vicdanlılara əmr verirlər, savadsızlar savadlılara bilik örədirlər və s.

Ruhi və ilahi elmlərin böhran keçirməyinə üzülmə Rəhmli Tanrım, əvəzində maddi elm çox inkişaf edib- o dərəcədə ki, bakirəlik belə süni yolla "bərpa" olunur! Maddi elm o dərəcədə irəli gedib ki, bəşərin toxunulmaz məbədinə- genetik kodlara belə müdaxilə edirlər. Alimlər artıq insan klonu yaratmağa nail olub, bunlardan bəziləri isə, Səninlə bəhsə girməyə cəsarət edib "süni insan" yaratmağa çalışırlar. Nəinki, insan, xəbərin varsa artıq süni Tanrı da yaratdılar, adını da süni intekllekt qoyublar. Bəşəriyyətin inkişafına xidmət etməli olan elm onun düşməninə çevrilib.

Elm və texnika inkişaf etdikcə insan öncə özünə problem yaradır, sonra da problemin həlli üçün yeni kəşflərə baş vurmaq məcburiyyətində qalır. Korrupsiya dünyanı başına götürüb, haram halaldan üstün olub. İndi babat day-dayı olmayan insan normal yaşamaq üçün uzunqulaq kimi işləməyə (iş tapa bilsə) məcburdur. Gözü doymayan hökmdarlar torpaq, var-dövlət və hakimiyyət naminə dinc xalqı qırğına verirlər. Ara yerdə Sənin mömün bəndələrin güdaza gedir.

Dünyamızın müsibətlərindən danışsam, onda gərək Sən bir neçə əsr mənim çərənləmələrimə qulaq asasan. Nə Sənin bu qədər səbrin var, nə mənim o qədər vaxtım

***Ardı var***

***Elçin Bayramlı***

# Əli Kərimli təyyarə qəzası ilə bağlı şər yazısını Avropa saytlarında dərc etdirdi



***Siyasətdə olub, ədəbli siyasi fəaliyyət göstərmək hər kəsə nəsib olan fəaliyyət deyil. Bunun üçün dövlətinə bağlılıq, xalqına sevgi hissi olmalıdır. Yazıqlar olsun ki, zamanında Azərbaycan xalqına və dövlətinə böyük fəlakətlər, acılar yaşatmış indiki dağıdıcı müxalif ünsürlər siyasətdə olsalar da, siyasətə gəlir mənbəyi olaraq baxırlar. Maddi və mənəvi dəstək əldə etmək üçün istənilən məkrli qüvvənin pozucu tapşırığını yerinə yetirməkdən çəkinmirlər.***

Xüsusilə də AXCP və Milli Şura rəhbərliyi sanki Avropanın və ABŞ-ın qərəzli dairələrinin uşaqlarıdır, onlardan nə göstəriş gəlsə, ağına-bozuna baxmadan icra edirlər. Ən ikrah doğuran hal ondan ibarətdir ki, Avropanın və ABŞ-ın qaranlıq dairələrinin əlaltısı rolunda çıxış edən uşaqları Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı belə çıxmaqdan çəkinmirlər. 44 günlük Vətən Müharibəsində az qala erməni ilə eyni mövqedən çıxış edən Əli Kərimli, Cəmil Həsənli, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbər və Arif Hacılı qələbəmizə qarşı qısqanclıq hissi ilə yanaşırdılar. O zaman cəmiyyətin bütün təbəqələri, o cümlədən siyasi partiyalar ümumi düşmənə qarşı birləşdiyi halda, sözügedən dağıdıcı müxalif ünsürlər, fərqli mövqe sərgiləyib, fəaliyyət yolu tutdular. Hətta bütün siyasi partiyalar beynəlxalq təşkilatlara, dövlət və hökumət başçılarına erməni vandaizmi və raketlə dinc sakinləri hədəf seçməsinə etiraz bəyanatları göndərərkən və ya müraciətlər ünvanlayarkən Əli Kərimli, Cəmil Həsənli, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbər və Arif Hacılı erməni diasporunun qorxusundan həmin bəyanatlara və müraciətlərə qoşulmadılar. Böyük zəfərimizdən sonra da erməni revanşistlərisayağı əməllərini və açıqlamalarını davam etdirdilər. Ə.Kərimli utanıb-çəkinmədən BBC-nin müxbiri ilə söhbətində “Qarabağ zəfəri Koçaryan və Sarkisyanın Azərbaycan torpaqlarını işğal etməsindən artıq deyil” bildirərək, zəfərimizə kölgə salmağa cəhd etdi.

### Ağıl elə həmin sərsəm ağıldır

Əli Kərimli, Cəmil Həsənli, eləcə də ABŞ-ın və Avropanın müəyyən dairələrindən maliyyə yardımları alan saytlar, internet TV-lər qələbələrimizlə yanaşı, milli faciələrimizə qarşı da verilən sifarişlərə, tapşırıqlara uyğun fikir bildirir, açıqlamalar yayır, videolar paylaşırlar. AZAL-ın Bakı–Qrozni reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması Azərbaycanı, bütövlükdə türk dünyasını kədərə boğduğu halda dağıdıcı müxalifət və Avropanın, ABŞ-ın “media” orqanları faciəni siyasiləşdirməyə cəhdlər göstərirlər. Bu isə onların insanlıq hissini itirdiklərini, bəşəri dəyərlərdən məhrum olduqlarını göstərir. Belə demək olar ki, faciədən öz siyasi və verilən tapşırıqların icra edilməsində istifadə edilməsi vicdansızlıq və yaramazlıqdır. Əli Kərimli həyasızcasına milli faciə ilə bağlı rişxənd xarakterli yazı yazır və ilkin olaraq həmin yazını facebook-da pullu reklam xidmətində yerləşdirir. Bununla kifayətlənməyən Ə.Kərimli qəza ilə bağlı yanlış, heç bir fakta söykənməyən cızma-qarasını Fransanın, Niderlandın, Almaniyanın və ABŞ-ın təxribat yuvası hesab olunan saytlarında dərc etdirir. Düşüncələr içində o fikri vurğulamaq olur ki, bu məxluq normal insan deyil. Çünki normal azərbaycanlı, ən azı dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanda doğulan insan xalqımıza matəm yaşadan dəhşətli qəza ilə yazı yazar və həmin yazını Avropanın Azərbaycana qarşı erməni maraqları prizmasından yanaşan dövlətlərin saytlarında yayımlayar və ya facebook-da pullu reklama qoyar? Yenə də o fikrə gəlmək olar ki, yalnız belə yaramazlığı satqınlar və xəyanətkarlar edə bilər. Üzdə olan fakt bir daha təsdiq edir ki, Ə.Kərimli və xaricdəki antimilli ünsürlər satqın və xəyanətkarlardır.

### Antimilli ünsürlər satqın olduqlarını əməlləri ilə nümayiş etdirirlər

Ə.Kərimli və xaricdəki antimilli ünsürlər absurd iddia irəli sürürlər ki, guya quru sərhədlər açıq olsa idi, təyyarə qəzası da olmazdır. Bu yanaşma birbaşa ağılsızlığın nəticəsidir. Ona görə ki, bu məxluqlar anlamırlar ki, istənilən hadisə istənilən sahədə və yerdə ola bilər. Dəfələrlə, qatar, avtobus və ya gəmi ilə sərnişin daşınmalarında insan itkisi ilə nəticələnən qəzalar baş verib. Digər tərəfdən araşdırmalara görə, hava gəmisi ilə sərnişin daşınmaları digər nəqliyyat vasitələri ilə müqayisədə daha təhlükəsizdir. Məsələn, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) 2022-ci il üzrə Təhlükəsizlik Hesabatına əsasən, sərnişin-aviaşirkət uçuşlarında ölümcül qəzalar və ümumilikdə təyyarə itkisi (hull loss) göstəriciləri tarixi minimuma düşüb. Sübut və dəlillər ortada olduğu halda Ə.Kərimlinin, Sevinc Osmanqızının, Trol Sadıqlının, Arif Yunusun, Arif Məmmədovun və digər trolların qəza ilə bağlı milli hissə toxunan, insani dəyərlərə hörmətsizlik hesab olunan fikir və rəylər bildirmələri, videolar paylaşmaları onların ermənidən betər erməni olduqlarını göstərir.

***İLHAM ƏLİYEV***

# “İnklüziv təhsil hər bir uşağın hüququdur”



**EKSPERT FİKRİ**



“İnklüziv təhsil, cəmiyyətin hər bir üzvünün bərabər hüquqlarını təmin etməyə yönəlmiş, təhsil sistemində mühüm yer tutan yanaşmadır. Bu model, xüsusi təhsil ehtiyacları olan uşaqların ümumi təhsil müəssisələrində təhsil alaraq cəmiyyətə tam inteqrasiya olunmasını hədəfləyir. İnklüziv təhsil yalnız uşaqların akademik uğurunu artırmaqla kifayətlənmir, həm də onların sosial, emosional və şəxsiyyət inkişafını dəstəkləyir. Bu yanaşma sosial ədaləti, bərabərliyi və cəmiyyətin daha tolerant



və harmoniya içində olmasını təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

O bildirib ki, inklüziv təhsil bir çox müsbət təsirlər yaradır. Əvvəla, o, sosial inteqrasiyanı təmin edir. Xüsusi ehtiyacları olan uşaqların ümumi təhsil mühitində təhsil alması, onların özünəinamını artırır və cəmiyyət tərəfindən qəbul edilməsinə kömək edir. Bu model cəmiyyətdə inklüziv dəyərləri təşviq edərək, müxtəlifliyə hörmətin artmasına şərait yaradır. Eyni zamanda, inklüziv təhsil uşaqların fərdi ehtiyaclarına uyğun tədris proqramlarının yaradılmasına imkan verir ki, bu da onların akademik və sosial bacarıqlarını inkişaf etdirir. Beynəlxalq tədqiqatlar göstərir ki, inklüziv təhsil proqramlarında iştirak edən uşaqlar məktəb mühitinə daha çox motivasiya olunur və gələcəkdə daha uğurlu peşəkar və sosial həyatı təmin etmək üçün əsas bacarıqlar əldə edirlər.

Bununla belə, inklüziv təhsil bir sıra çətinliklərlə də üzləşir. Əsas problemlərdən biri resurs çatışmazlığıdır. Xüsusi ehtiyacları olan uşaqlar üçün məktəblərdə xüsusi şəraitin və resursların təmin edilməsi tələb olunur. Bununla yanaşı, müəllimlərin inklüziv təhsil metodlarına dair bilik və təcrübələrinin çatışmazlığı da bu modelin tətbiqini çətinləşdirir. İnklüziv təhsilin tətbiqi üçün müəllimlər müvafiq təlimlərdən keçməli və fərqli ehtiyacları olan uşaqlarla işləmək bacarıqlarını inkişaf etdirməlidirlər. Digər bir problem isə məktəblərin fiziki infrastrukturunun uyğun olmamasıdır. Məsələn, fiziki əlilliyi olan uşaqlar üçün məktəblərdə uyğun gediş yolları, liftlər və ya digər avadanlıqların olmaması onların təhsil hüquqlarını məhdudlaşdıra bilər.

Azərbaycanda inklüziv təhsil hələ də inkişaf mərhələsindədir. Ölkəmizdə bu modelin tətbiqinə dair bəzi mühüm addımlar atılmışdır. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu inklüziv təhsil hüququnu təmin edir və bu istiqamətdə bir sıra pilot layihələr həyata keçirilir. Xüsusilə, Bakı və bəzi region məktəblərində xüsusi ehtiyacları olan uşaqlar üçün resurs otaqları yaradılmışdır. Bu resurs otaqları uşaqların fərdi təhsil proqramları çərçivəsində inkişafını təmin etmək məqsədini daşıyır. Həmçinin, bəzi ali təhsil müəssisələrində müəllimlər üçün inklüziv təhsil metodikalarına dair təlimlər keçirilir.

Lakin bu sahədə problemlər hələ də qalmaqdadır. İnklüziv təhsilin inkişafı üçün dövlət tərəfindən daha çox maliyyə və resursların ayrılması vacibdir. Eyni zamanda, ictimaiyyətin bu sahəyə dair məlumatlandırılması da əhəmiyyətlidir. Valideynlər və müəllimlər arasında inklüziv təhsilin əhəmiyyəti və üstünlükləri haqqında geniş maarifləndirmə kampaniyaları aparılmalıdır. Xüsusi ehtiyacları olan uşaqların təhsil hüquqlarını təmin etmək üçün məktəblərdə daha çox resurs otaqları yaradılmalı, müəllimlər bu sahədə ixtisaslaşmalı və məktəblərin infrastrukturu təkmilləşdirilməlidir.

Nəticə olaraq, inklüziv təhsil cəmiyyətin bütün üzvlərinə bərabər imkanlar yaratmaq və onların tam hüquqlu vətəndaşlar kimi yetişməsini təmin etmək üçün ən effektiv yanaşmalardan biridir. Azərbaycanda bu modelin inkişafı üçün daha çox təşəbbüs göstərilməli, dövlət və cəmiyyət bu məsələdə fəal iştirak etməlidir. İnklüziv təhsil hər bir uşağın hüququdur və onun səmərəli təşkili daha ədalətli, inkişaf etmiş və sosial baxımdan güclü bir cəmiyyətin formalaşmasına mühüm töhfə verəcəkdir”.

***Səbinə Hüseynli***

# "Ermənistanın silahlandırılması bütün hallarda sülh perspektivlərinə zərbə vurur"

*"Silahların və hərbi sursatın müdafiə və yaxud da, hücum xarakterinə görə bölünməsi kifayət qədər şərti bölgüdür. Çünki heç elə bir silah, hərbi sursat növü xatırlamaq olmaz ki, onun ya hücum məqsədi ilə, ya da müdafiə məqsədi ilə istifadə olunmalı olduğunu deyə biləsən". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib. O bildirib ki, istənilən növ silah və hərbi sursatlar həm hücum xarakterlidir, həm də müdafiə xarakterlidir: "Xüsusilə də, indiki şəraitdə, yəni silah və sursatların ən modern texnologiyalarla hazırlandığı şəraitdə konkret bölgü aparmaq mümkünsüzdür ki, bunlar hücum silahıdır, digərləri isə müdafiə xarakterlidir.*




İkinci tərəfdən söhbət Amerikanın indiki şəraitdə Azərbaycanı və Ermənistanı silahlandırmaq məsələsində eyni müstəvidə qoymasının yolverilməzliyindən gedir. Əgər doğrudan da, Amerika Azərbaycana və Ermənistana bu silahları "hücum silahları olmasın, yalnız müdafiə xarakterli silahlar olsun" məntiqi ilə verirsə, burada bir məntiqsizlik əmələ gəlir. Ona görə ki, Amerikada Azərbaycanın və Ermənistanın hələ sülh sazişi imzalamadıqlarını və faktiki müharibə vəziyyətində olduqlarını bilirlər. Belə bir şəraitdə Amerika əgər Azərbaycana da, Ermənistana da müdafiə xarakterli silahlar verirsə, onda sual yaranır ki, Amerika bu tərəfləri kimdən müdafiə etmək istəyir? Azərbaycanın, Ermənistanın kimdən müdafiəsi haqqında düşünür? Bu, sübut edir ki, Amerika departamentindən verilən bu izah lazımi qədər məntiqsizdir".



"İkinci tərəfdən Azərbaycanın və Ermənistanın silahlanma məsələsində eyni müstəviyə qoyulması başqa nöqteyi nəzərdən də yolverilməzdir. Çünki Azərbaycan Ermənistanın 30 illik təcavüzündən yenicə qurtarıb, torpaqlarını azad edib, sülh sazişinin imzalanması üçün ardıcıl cəbhələr göstərir. Amma Ermənistan hələ sülh sazişini imzalamayıb. Azərbaycana qarşı revanşist və ərazilərin yenidən işğal olunması iddialarından hələ də əl çəkməyib. Belə bir şəraitdə Amerikanın Azərbaycanı və Ermənistanı eyni dərəcədə silahlandırması yenə də məntiqsiz görünür. Nəhayət, onu da deyək ki, indiki şəraitdə Ermənistanın silahlandırılması bütün hallarda bu bölgədə sülh perspektivlərinə sarsıdıcı zərbə vurur. Belə bir faktı da unutmaq olmaz ki, Amerikanın Azərbaycana dövlət səviyyəsində yardımı qadağan olunduğu halda Ermənistan belə bir qadağanın altında deyil. Ermənistan istədiyi səviyyələrdə, istiqamətlərdə Amerika ilə əməkdaşlıq edə bilir. Bir sözlə, Amerika Dövlət Departamentinin verdiyi bu izah reallığa adekvat deyil. Əslində Amerikanın Azərbaycana və Ermənistana, təcavüzkara və təcavüz qurbanı olmuş dövlətə əsassız şəkildə eyni müstəvidə baxdığını nümayiş etdirmək cəhdidir. Ancaq Amerikanın bu cəhdi uğursuzdur" - deyə o, əlavə edib.

ŞƏRH

***Söylü Ağazadə***

# Ertələmənin psixoloji səbəbləri nədir?

"Ertələmə bir çox insanın rastlaşdığı, lakin əsasən dərin psixoloji səbəblərə bağlı olan bir davranışdır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib. Psixoloq sözlərinə belə davam edib: "Bəzən insanlar müəyyən bir işi görməkdən çəkinirlər, çünki nəticənin mükəmməl olmayacağından qorxurlar. Bu qorxu onları işə başlamaqdan saxlayır və ertələməyə gətirib çıxarır. İşə qarşı marağın olmaması və ya məqsədin mənasız görünməsi motivasiya çatışmazlığına səbəb olur. Bu isə həmin işin davamlı olaraq təxirə salınmasına gətirir. Uğursuzluq qorxusu, tənqidə məruz qalmaqdan narahatlıq və ya uğurdan sonra məsuliyyətin artacağından çəkinmək ertələməni yaradan əsas emosional faktorlardır. İnsanlar bəzən vaxtlarını düzgün planlaşdıra bilmədikləri üçün müəyyən tapşırıqları gecikdirirlər.




Valideynlərin həddindən artıq tənqidi və ya uşağın etdiyi hər bir işi onun əvəzinə etmələri uşaqlarda özünü idarəetmə bacarığının inkişaf etməməsinə səbəb ola bilər. Bu isə ertələmə kimi bir davranış şəklində özünü göstərə bilər. Depressiya zamanı insanlarda enerjinin azalması və ümidsizlik hissi işlərin təxirə salınmasına səbəb ola bilər. Diqqət dağınıqlığı olan insanlar isə prioritetləri düzgün müəyyən etməkdə çətinlik çəkirlər.

**Nə edək bəs?**

**Tövsiyələr:**

- Böyük tapşırıqları kiçik hissələrə bölmək.
- Özünə həddindən artıq təzyiq göstərməmək.
- Məqsədləri daha aydın və realist şəkildə müəyyənləşdirmək.
- Müəyyən vaxt intervalları təyin edərək fasilələrdən düzgün istifadə etmək.
- Peşəkar dəstək üçün bir psixoloqa müraciət etməyi tövsiyə edirəm.

***Ayşən Vəli***



**Mətanət Məmmədova**

# Bakı-Qroznı reysi: sonsuzluğun sonu

*Adı "sonsuzluq" olan bu ifadə müsbət və mənfi olaraq, iki məna daşıyır. Sonsuz sevgilər, sonsuzadək yaşananlar, sonsuzadək anılanlar kimi sonsuzluğun acısını yaşayanlar da var: sonsuzluqla mücadilə edənlər, sonsuzluğun sonunun olmadığını bilə-bilə bir sonun çatmasını gözləyənlər kimi... Üç gün əvvəl Bakıdan Qroznıya uçan təyyarənin ayağın yerdən kəsildiyi minlərlə metr yüksəklikdə öz məhvərindən çıxarılıb sonsuzluğa salındığı kimi...*

Təyyarə sonu olmayan fəzada içərisindəki insanların sağ qalması üçün saatlarla mücadilə etdi. Lakin öz yolunu itirmişdi. Başqa səmtə istiqamətləndirilmişdi. Sulara qərq ediləcəkdi. Lakin fəzanın sonsuz olduğunu isbatlayan insan övladlarından biri olan bacarıqlı pilot bu izin itirilməsinə izn verə bilməzdi. Nəyin bahasına olursa-olsun təyyarə quruya enməli, hadisənin nə səbəbdən baş verdiyini bildirməli idi. Ona görə də sonsuz fəzada sonsuzluq yolundan keçməli oldu. Sonsuzluğun düsturunu yenidən cızmalı oldu. Bir daha təsdiq etdi ki, fəza sonsuzdur və öz yolunu itirən hər bir təyyarə onun qurbanı ola bilər. Və bir də onu ki, sonu olmadığını təsdiq etdiyimiz sonsuzluq nəyinsə, kiminsə sonu ola bilər...

Təyyarədə olan 62 sərnişin və 5 ekipaj üzvü təyyarə sonsuzluqda özünə yol axtararkən sonsuz dərəcədə həyəcan, qorxu, təşviş yaşadı. Bu həyəcana, qorxuya, təşvişə eyni zamanda onların ölüm-qalım fikirləri də qarışmışdı. Bir də arzuları... Kimi yerə enəndə hara gedəcəyini, kiminlə görüşəcəyini, nəvəsini, oğlunu-qızını bağrına basacağını, lap çoxdan görmədiyi qohumunun evində necə qarşılandığını düşünərkən, yaxınları ilə harada gəzib-dolaşacağını planlaşdırarkən və yaxud ya işləmək, ya xəstəlik üçün üz tutduğu şəhərdə bu problemlər həll olunacaqmı deyə fikirləşərkən özlərindən xəbərsiz həmin sonsuzluq xətti üzərində sonsuzluq işarəsini cızırdılar. Ya bu xətdən çıxacaq, yerə sağ-salamat enəcək, ya da sonsuzluğun içərisində bir sona qovuşacaqdılar.

Təəssüf ki, sonsuzluq sonu oldu onların qədərinin. Pilotun böyük məharətlə təyyarəni qurtarmaq, insanların həyatını təhlükəsizləşdirmək mübarizəsinə baxmayaraq artıq hadisə baş vermişdi və yerə enmək mümkünsüz idi. Təyyarədəki 67 insan övladının qədərində bu faciəni yaşamaq, Allahın həmin gün "öl" və "ölmə" əmrinə boyun əymək varmış...

Və belə də oldu. Həyatı həmin günə nöqtələnən və Allahın "öl" əmri verilən 38 nəfər bu səfərin qurbanı, 29 nəfər isə Allahın ölmə əmri ilə həyatda qalmalı oldu. Bu hadisə bəzən Allahın da varlığına şübhə edən insan övladı üçün sonsuzluğun sonu olduğu kimi, Allahın-kainatı yaradan qüvvənin də olduğunu bir daha sübut etdi. Əgər belə deyilsə, o yanğından, o bombardmandan kim xilas ola bilərdi?..

Hər kəs mücadilə apardı. Stüardessanın "Sakit oturun, narahat olmayın" sözlərinə riayət etdi. Hökumə Əliyeva "Hər şey yaxşı olar" deyəndə sonsuz bir ümid də yarandı qəlblərində. Bu gənc stüardessanın təcrübəsini öz mülahizə və ehtimallarından üstün tutdular. Lakin bu hər şeyin yaxşı olacağına çağırış əslində hər şeyin yaxşı olmayacağının da təsəllisi idi. Özünün də onlarla insanla birlikdə bir qədər sonra sonsuzluqda sonu çatacaq gözəl, vətənpərvər, təhsilli, vəzifəsinin öhdəsindən layiqincə gələn azərbaycanlı bir qadının təsəllisi, ümidə inam hissi idi...

Lakin az sonra 67 insan qəlbində min bir arzu ilə, gələcəyinə hesabladığı və ardınca qaçdığı diləklə göydən yerə çırpıldı: parça-parça olanlar, tanınmaz vəziyyətə düşənlər, yanğına məruz qalanlar və ağır xəsarət alanlar, ölümlə mücadilə edənlər, lakin sağ qalanlar, yaşayanlar...

Xalqımız üç gündür matəm içindədir. Bu hadisə öz ağırlığı, dəhşəti ilə ürəkləri göynədir, ağrıdır. İstər soydaşlarımızın, istər təyyarədə olan digər millətlərin nümayəndələrinin fəzada nələr yaşadığını düşündükcə insan varından yox olur.

Nə etməli ki, hadisə baş verdi, bütün bunlar yaşandı. Sən demə sonsuzluq da insan övladının sonunu gətirməyi bacaran bir qüvvə imiş. Ölüm haqdır, kim ondan yayına bilər ki... Lakin belə ölümlər özündən heç kimin fikrini yayındıra bilmir: baş verməsi, ağırlığı, ağılagəlməzliyi ilə...

Allah hadisədə həyatını itirənlərə rəhmət, yaralılara şəfa versin. Hər il dekabrın 25-i bizim üçün sonsuzluğun canlarına qıydığı, həyatlarına son verdiyi soydaşlarımızın o an, o saatda yaşadığı faciə ilə anılacaq. Əvvəlki təyyarə qəza və hadisələri, onların qurbanları kimi.

# Siyasi partiyalar qəza anından dövlətin və xalqın yanında oldu

***Bugünkü reallıq ondan ibarətdir ki, hava nəqliyyatı etibarlı sərnişin daşınmalardan hesab olunur. Yəni digər nəqliyyat növlərindən fərqli olaraq hava nəqliyyatı nisbətən daha təhlükəsiz və əlverişlidir. Həm də hava gəmiləri insanların qısa müddətdə bir yerdən başqa bir yerə daşınmasını tezləşdirən nəqliyyat vasitəsi hesab olunur.***

Müasir texnologiyaların inkişafı hava gəmilərinin təhlükəsiz uçuşunun daha effektli təmin olmasına imkanlar yaradır. Bununla belə təəssüf hissi ilə bildirmək lazımdır ki, nə qədər texnologiya inkişaf etsə və sərnişin təyyarələri təkmilləşsə də, təyyarə qəzaları dünya aviasiya tarixinin ayrılmaz hissəsi olaraq qalmaqdadır. AZAL-ın Bakı–Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması da aviasiya tarixinin dəhşətli qəzalarındandır. Rəsmi məlumata görə, "Azərbaycan Hava Yolları" aviaşirkətinin təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması nəticəsində 38 nəfər həlak olub, 29 nəfər, o cümlədən iki uşaq qəza nəticəsində xəsarət alıb, yaralılardan 11-nin vəziyyəti ağır, digərlərinin vəziyyəti orta-ağır qiymətləndirilir. Baş verən dəhşətli qəza ilə bağlı dünya ölkələrinin dövlət və hökumət başçıları Prezidentimiz İlham Əliyevə telefonla zəng edir, məktublar ünvanlayır həlak olanların ailələrinə, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayırlar.



## Azərbaycan xalqı baş verən təyyarə qəzasından sarsılsa da, yenə də bir bayraq altında birləşməyi bacardı

Azərbaycan cəmiyyətinin bütün təbəqələri baş verən təyyarə qəzasında sarsılsa da, toparlanaraq birlik və həmrəylik nümayiş etdirməyi bacarır. Xüsusilə də, hər zaman milli maraqlardan, dövlətçilik mənafeyindən çıxış edən siyasi partiyalar, o cümlədən Yeni Azərbaycan Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası Sabir Rüstəmxanlı, "Ana Vətən" Partiyası Fəzail Ağamalı, Ədalət, Hüquq, Demokratiya Partiyası Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyası Fazil Mustafa, Demokratik İslahatlar Partiyası Asim Mollazadə, Azərbaycan Demokratik Maarifçilik Partiyası Elşən Musayev, Milli Cəbhə Partiyası Razi Nurullayev,. Azərbaycan Milli İstiqlal" Partiyası Arzuxan Əlizadə, "Böyük Azərbaycan" Partiyası Elşad Musayev,Haqq Ədalət Partiyası Əli İnsanov,Vəhdət Partiyası Tahir Kərimli, Azərbaycan Ümid Partiyası İqbal Ağazadə, Azərbaycan Demokrat Partiyası Sərdar Cəlaloğlu, Azərbaycan Xalq Partiyası Pənah Hüseyn, Milli Dirçəliş Hərəkatı Partiyası Fərəc Quliyev, Ədalət Partiyası İlyas İsmayılov, Klassik Xalq Cəbhəsi Partiyası Mirmahmud Fəttayev, AĞ Partiyası Tural Abbaslı, REAL Partiyası Natiq Cəfərli, Azad Vətən Partiyası Akif Nağı, Müasir Müsavat Partiyası Hafiz Hacıyev, Yeni Zaman Partiyası Musa Ağayev və Gələcək Azərbaycan Partiyası Ağasif Şakiroğlu AZAL-ın Bakı–Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar bəyanat yayıblar. Bəyanatda qeyd olunur ki, 2024-cü il dekabrın 25-də "Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysi üzrə sərnişin daşıyan təyyarəsinin qəzaya uğraması nəticəsində insanların faciəvi şəkildə dünyalarını dəyişməsi və xəsarətlər alması bütün xalqımızı dərindən kədərləndirdi: "Baş vermiş hadisə ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasına səfərini təxirə salmış, təcili ölkəyə qayıdaraq qəza nəticələrinin aradan qaldırılması və səbəblərinin araşdırılması üçün operativ müşavirə keçirmişdir. Dövlətimizin başçısının imzaladığı müvafiq sərəncamlarla baş vermiş qəzanın səbəblərinin araşdırılması, qəzada həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə yardım göstərilməsi, həmçinin qəzadan zərər görmüş xarici ölkə vətəndaşları ilə bağlı məsələlərin həlli məqsədilə dövlət komissiyası yaradılmış, ölkədə bir günlük matəm elan olunmuşdur".

## "Bədbəxt hadisəni siyasi spekulyasiya predmetinə çevirmək cəhdini qınayır, vətəndaşlarımızı və bütün dünya azərbaycanlılarını həmrəyliyə çağırırıq"

Bəyanatı imzalayan siyasi partiyalar inamlarını ifadə edirlər ki, müvafiq dövlət qurumları qəzanın səbəblərini qısa müddətdə araşdıraraq ictimaiyyətə ətraflı məlumat verəcək, qəzadan zərər görənlərə lazımi dövlət qayğısı göstəriləcək : "Bəyanatı imzalayan siyasi partiyalar adından təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını arzulayırıq. Belə ağır günlərdə xalqımızın və dövlətimizin yanında olduğumuzu bəyan edir, bəzilərinin bu bədbəxt hadisəni siyasi spekulyasiya predmetinə çevirmək cəhdini qınayır, vətəndaşlarımızı və bütün dünya azərbaycanlılarını həmrəyliyə çağırırıq. Uca Allah xalqımızı bəlalardan qorusun!"

Siyasi partiyaların faciənin baş verdiyi andan dövlətin mənafeyindən çıxış etməsi və xalqın yanında olması, ölkəmizdə sivil, demokratik siyasi formatın qurulduğunu göstərir. Düzdür, yenə də Əli Kərimli, Cəmil Həsənli kimi məxluqlar facia ilə bağlı nalamıxa vuran fikirlər səsləndirirlər. Bunula onlar bir daha maşa rolunda çıxış etdiklərini nümayiş etdirirlər. Belələrinə haqlı olaraq "onlar bizlərdən deyil" - deyə bildirilir.

**İLHAM ƏLİYEV**

# "Bu amillər gənclərin ailə qurmasına maneə olur"

***İşsizlik, müasir cəmiyyətin ən ciddi sosial-iqtisadi problemlərindən biri olaraq qalır. Xüsusilə gənclər arasında işsizlik, həm fərdi inkişaf, həm də ölkənin iqtisadi sabitliyi baxımından ciddi təsir doğurur. Məsələ ilə bağlı sosioloq Üzeyir Şəfiyev SİA-ya açıqlamasında bildirib ki, bu gün müzakirə olunan, aktual məsələlərdən biri də işsizlik, özəlliklə gənclər arasında işsizlik məsələsidir ki, cəmiyyət tərəfindən müzakirə obeyktinə çevilib: "İşsizlik Azərbaycanda rəsmi statistikaya istinad etsək təqribən 5,6 % göstərilir, gənclər arasında isə 11% faizdən bir qədər çox göstərilir.***



Bəli işsizlik reallığı belədir, ancaq qeyd etməliyik ki işsizliyin bir çox səbəbləri var. İlk növbədə ondan başlayaq ki, təhsil müəssisələri və kolleclər tərəfindən bizim əmək bazarı, onun tələbləri öyrənilməlidir ki, əmək bazarında hansı mütəxəssislərə daha çox ehtiyac var. Bu həm də bu gün üçün yox orta prespektiv üçün fitroloji baxımdan öyrənilməlidir ki,10-15 ildən sonra Azərbaycanda əmək bazarında hansı sahəyə daha çox ehtiyac olacağı barəsində müəssisələr, təhsil müəssisələri, elmi tədqiqat müəssisələri tərəfindən tədqiqatlar aparılmalıdır. Bunun nəticəsi olaraq əmək bazarı öyrənilsin və tələblərə uyğun mütəxəssiz hazırlığı həyata keçirilsin.

Yəni bəzi sahələr var ki, təhsil sahəsində baxıb görürük ki həmin sahədə əmək bazarında kifayət qədər bolluq var amma yenə də sürəcli şəkildə mütəxəssiz hazırlığı



həyata keçirilir. Elə sahələrdə var ki orda mütəxəssiz yoxdu amma yenə də mütəxəssiz hazırlığı keçirilir. Ona görə də tələb və təklif əsasında mütəxəssiz hazırlığı həyata keçirmək lazımdır. Mütəxəssiz hazırlayarkən də əmək və təhsil müəssisələri inteqrativ şəkildə fəaliyyət göstərməli, fəaliyyətlərini koordinasiya etməlidir. Yəni bazarda nə qədər və hansı mütəxəssizə indi, orta perspektivdə ehtiyac olacaq. Ona uyğun hesab edirəm ki təhsil və kolleclər mütəxəssiz hazırlığını həyata keçirməlidir. Eyni zamanda mütəxəssiz hazırlığı həm də keyfiyyət göstəricisinə görə artırılmalıdır, çünki bəzən əmək müəssisələri mütəxəssiz hazırlığında keyfiyyət baxımından gileylənir. Ona görə mütəxəssiz hazırlığında yəni təkcə nəzəri bilgilər yox praktik bilgilər öyrədiləndə əmək müəssisələrində iştirak etməlidir. Mütəxəssizlər kolleclərdə, ali təhsil ocaqlarında nəzəri bilgilərlə hazırlansa da bunun praktikası müəssisələrdə düzgün təşkil olunmalıdır. Praktik bacarıq və vərdişlər düzgün aşılanmalıdır ki, sonradan deyilməsin ki əmək bazarına uyğun kadr hazırlığı həyata keçirilmir. Bəzən iş təcrübəsi tələb olunur, hesab edirəm ki mütəxəssiz hazırlayarkən tələbələrin həm kolleclərdə, həm də ali təhsil ocaqlarında keçdiyi praktika onların təcrübəsi kimi qeyd oluna bilər. Buda nəzərə alınsa çox yaxşı olar. Eyni zamanda gənclərin axını daha çox paytaxta olur, bu da ondan irəli gəlirki onlar regionda, bölgədə özünə uyğun iş tapa bilmirlər.

Regionlarda da gənclərin marağına uyğun iş təklif olunmalıdır. Yalnız iş yox gənclərin yaş psixologiyasına uyğun olaraq onların orada çalışması üçün mənəvi mühitdə olmalı, mənəvi şərait yaradılmalıdır ki gənclər paytaxta axın etməsinlər.

Bundan başqa həm də biz bəzi statistik rəqəmlərə baxanda görürük ki məsələn Azərbaycanda net indeksinə görə işləməyən və təhsil almayan gənclər 23 % təşkil edir. Azərbaycanda strateji planlama budur ki, 2030-cu ilə qədər bu faizi 15%-ə endirsin. Bu istiqamətdə artıq hökumətdə addımlar atır. Bundan başqa yoxsulluğun aradan qaldırılması ilə bağlı dövlət proqramları var və həyata keçirilir. Ancaq güman edirəm ki bu bütün regionları əhatə etməlidir. O cümlədən ölkə başçımızın regionda sosial-iqtisadi inkişafına dair dövlət proqramında bu öz əksini tapır. Sadəcə bu proqramların hesabatlığı artırılmalıdır. Yəni proqramdan irəli gələn öhdəliklər, vəzifələr monitorinq olunmalıdır ki nə qədər bu proqram yüksək keyfiyyətlə icra olunur.

İşsizlik əlbətdə çox böyük problemdir və bunun sosial fəsadları çoxdur. İşləməyən gənclər müxtəlif sahələrə həm dini baxımdan, həm də digər delekvent fəaliyyətə cəlb edirlər. Bu da şübhəsiz ki cəmiyyətdə sosial animiyaları artırır. Bu olmasın deyə biz çalışmalıyıq gəncləri sağlam məşğulluq proqramlarına cəlb edək, eyni zamanda onlar üçün adekvat iş sahələri açaq, peşə bacarıqlarını artıraq və əmək bazarına uyğun hazırlayaq ki orda gənclərə tələbat artsın. Eyni zamanda gənclər də əmək bazarına uyğun şəkildə özünü təkmilləşdirməlidir.

İşsizliyin sosial fəsadları çoxdur. Bu həm gənclərin ailə qurmasına maneə olur, həm gənclər arasında deliant davranışına yəni əxlaqa zidd, gənclər arasında cinayət əməlləri törətmələrinə, onların xaricə üz tutmasına səbəb olur. Buda ki dolayısı ilə təbii artıma, ölkənin demaqrafik vəziyyətinə təsir göstərir. Bu əlbətdə çox ciddi məsələdir, diqqətə alınmalı və müzakirə olunmalıdır. Və bununla bağlı güman edirəm ki daha effektli addımlar atılmalıdır. Bu gün statistikaya baxırıq ki Azərbaycanda 60 000 işləyən pensiyaçı var, misal üçün bu işləyən pensiyaçılar uyğun pensiya alsalar onlar 60 000 iş yerini gənclərə verə bilər. Eyni zamanda gənclərin regional yerləşməsi üzrə iş təklifləri olunmalı,iş yerləri yaradılmalıdır.

Gənclərin həm də regionlarda qalıb işləməsi üçün mənəvi mühit uyğun olmalıdır. Gənclər arasında kiçik, orta sahibkarlıq təşviq etmək olar və bütün bunlar əlbətdəki koordinasiyalı şəkildə görülməlidir ki işsizlik olmasın. Bu da ölkə iqtisadiyyatına həm töhfə versin, həm də gənclərin Azərbaycan iqtisadiyyatına inteqrasiyasında töhfəsi olsun".

**Xeyrənsə Piriyeva**





# Türk mənşəli adların dəyişdirilməsi siyasəti

***Tarixi dövrümüzü əks etdirən mənbələrə nəzər salsaq görərik ki, Ermənistan ərazidəki türk mənşəli adların dəyişdirilməsi siyasətinə "Türkmənçay" sülh müqaviləsindən sonra, XIX əsrin 30-cu illərindən sistemli və məqsədli şəkildə başlanılmışdır. Tarixin müxtəlif dönəmlərinə nəzər salsaq görərik ki, ermənilərin 1918-20-ci illərdə xalqımızı soyqırıma məruz qoyduqları kimi, qədim tarixi abidələri, binaları yandırır və addəyişməni davam etdirməklə mənəvi soyqırıma məruz qoyurdular.***



Həmin dövrün materiallarını əks etdirən sənədlərdə qeyd olunur ki, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində türk mənşəli adlar Yuxarı Ağdam - Qanzakar (İcevan), Tamamlı - Burastan (Artaşat) və s. erməni mənşəli sözlərlə əvəzləndi.1924-cü ildən aparılan addəyişdirmə prosesi nəticəsində Gümrü Leninakan adlandırıldı. Sonra Böyük Qarakilsə Kirovakan oldu. 1924–1930-cu illər ərzində Ermənistanda türk mənşəli 80 toponim dəyişdirilmişdir. Toponimlərin dəyişdirilməsinə səbəb kimi Ermənistan SSR-nin rəsmi qərarı göstərilirdi. Rəsmi qərarda qeyd olunurdu ki, Ermənistandakı yer adları dini məna daşıdığı, keçmişin feodal ünsürlərini özündə əks etdirdiyinə görə dəyişdirilməlidir. Təbii ki, Ermənistandakı türk toponimlərinin dəyişdirilməsinə əsas səbəb bu adların türk mənşəli olması idi. Toponimlərin dəyişdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra daha da sürətləndi. 1946–1948-ci illərdə Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana köçən ermənilərin sayının artması, eləcə də qeyd olunan illərdə təqribən 90 000 ermənінin Qərbi Azərbaycana köçürülməsi buna səbəb idi. Tarixçi alimlərin qənaətinə əsasən, toponimlərin dəyişdirilməsinin digər səbəbi Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə deportasiyası idi. Bu qərara əsasən, 1948-ci ildə 10 000, 1949-cu ildə 40 000, 1950-ci ildə 50 000 azərbaycanlı Ermənistandan köçürüldü. Vurğulayaq ki, Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyətinin ilk fərmanı ilə 29 rayonda 72 türk toponimi dəyişdirilərək mənəvi soyqırım qurbanı olub.

Zaman-zaman türk mənşəli toponimlər təcavüzə məruz qalmışdır. Adı dəyişdirilən rayonlardan biri də Basarkeçər rayonu olub. Basarkeçər rayonu 1930-cu il sentyabrın 9-da yaradılıb. 1969-cu il iyunun 11-nə kimi Basarkeçər, həmin tarixdən sonra isə Vardenis rayonu adlandırılıb. Rayon ərazisində irili-xırdalı çoxlu dağ zirvələri və Göyçə gölünə tökülən çaylar vardır. Onlardan ən böyüyü Məzrə (dəyişdirilmiş adı Masrik) çayıdır. Çaxırlı yaylası da bu rayon ərazisindədir. Tarixi mənbələrdə göstərilir ki, 1948-1951-ci illərdə rayon əhalisinin bir qismi Azərbaycan ərazisinə köçürülmüşdür. Təkcə Zod kəndindən 100 ailə Xanlar (indiki Göygöl rayonu) rayonunda məskunlaşdırılmışdır. Bu vaxt Basarkeçərin 37 kəndində 30-u azərbaycanlı, 5-i erməni, 2-si isə qarışıq kəndlər idi.

Vurğulamaq yerinə düşər ki, 28 noyabr 1988-ci il tarixdə daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edərək nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfəri döyərək işgəncə ilə qətlə yetirmişlər. Qardaçovğunda borana düşən qaçqınlardan 12 nəfər isə donvurmadan tələf olub.

Basarkeçər rayonunun Daşkənd, Nərimanlı, Ağkilsə, Pəmbək, Qızılvəng, Şişqaya, Zod, Qanlı, Yuxarı Zağalı, Sətənağac, Kəsəmən, Göysu, Dərə, Subatan, Sarıyaqub, Çaxırlı, Zərkənd, Canəhməd, Yarpızlı, Böyük Məzrə, Kiçik Məzrə, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Qoşabulaq, İnəkdağı, Babacan, Kərkibaş, Qayabaşı, Qaraiman, Ağyoxuş, Yuxarı Şorca, Aşağı Şorca, Qırxbulaq, Gödəkbulaq, Tüskülü, Qamışlı, Aşağı Zağalı kimi kəndləri var.

### AZƏRBAYCANIN QƏDİM TORPAĞI GÖYÇƏ MAHALI

Bu gün Azərbaycan öz tarixi torpaqlarına qovuşub. 44 günlük Vətən müharibəsi 30 ilə yaxın işğala son qoydu. Bu gün türk mənşəli tarixi adlarımız da özünə qaytarılır. Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb və orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilirdi. "Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır", - deyə Azərbaycan Prezidenti bildirib. Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşan da öz tarixi adına qovuşdu. Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsində olan Suqovuşan 3 oktyabr 2020-ci il tarixində Qarabağda gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdir. Suqovuşan kəndi 1923-cü ildə təşkil edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonu inzibati ərazisinə daxil edilib. 1943-cü ildə Suqovuşana şəhər tipli qəsəbə statusu verilmişdi. 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu, Tərtər rayonu və Kəlbəcər rayonu arasında bölüşdürüldü. Suqovuşan kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biri olmuşdur. Onu da vurğulayaq ki, Suqovuşan ilk dəfə 1991–1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edib. 44 günlük Vətən müharibəsində işğaldan azad edilən bu ərazinin tarixi adı Prezident İlham Əliyev tərəfindən bərpa edilərək Suqovuşan adlandırılmışdır.

### 16 RAYONDA 90 TÜRK MƏNŞƏLİ TOPONİMLƏR DƏYİŞDİRİLİB

Tarixçi alimlərin fikirlərinə istinadən deyə bilərik ki, bir çox hallarda yeni ad tapa bilmədiklərindən Azərbaycan toponimləri erməncəyə tərcümə olunmuş, ya da bir-iki hərf dəyişdirilmişdir. Dəmirçi-Darpnik, Ağqala-Berdkunk, Ayrıvənk-Hayravan, Zod-Sotk, Qızıl Bulaq-Xaçaxbyur, Məzrə-Masrik, Qaraqala-Sevaberd, Göykilsə-Kaputan, Oxçaberd-Voxçaberd, Yengicə-Norabats, Xaçaparaq-Xaçpar, Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Almalı-Xizorud, Nəzrvan-Kazaravan, Ağbulaq-Axpurak, Bəriabad-Barapet, Ağkilisə-Cermakavan, Acıbac-Acabac, Qovşud-Kavçut, Kərd-Kard, Ağudi-Aqitu, Aravus-Aravis, Bayandur-Baqatur, Yeni kənd-Nor-Gyuq, Gabut-Kapuyt, Molla Musa-Musakan, Piraqan-Byurakan, Daşqala-Karaberd, Bəzirxana-Dzithankov, Qızıltamur-Vosgevaz, Melikkənd-Melikgyuğ və s. Sovet Ermənistanı ərazisində olan Azərbaycan mənşəli bütün toponimlərin - çayların, dağların, dərələrin, təpələrin, düzənliklərin adları belə dəyişdirilib erməniləşdirilmişdir. İndi Ermənistan adlanan ərazinin toponimlərinin əksəriyyətini türk mənşəli toponimlər təşkil edirdi.

Yaxın tariximizə nəzər salsaq, görərik ki, 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu rəsmi statistika Ermənistan prezidentinin fərmanı ilə 1991-ci ili əks etdirir. XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəli idi.

Ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti iki əsrlik tarixi dövrü əhatə edir ki, bu zaman məsafəsində təkcə ərazi iddiaları ilə təcavüzkar siyasətlərini davam etdirməyib, eyni zamanda mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikib, onları özününküləşdirməyə çalışıblar. Mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq, əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Mənbələrə istinadən deyə bilərik ki, ilk addəyişdirmə 1801-ci ildə baş vermiş, türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Belə ki, ilk dəyişdirilən ad Cəlaloğlu rayonundakı (Stepanovan rayonu) Qaraməhəmməd kəndinin adının dəyişdirilərək Aleksandrovka qoyulması ilə başlayıb. Beləliklə, Azərbaycan toponimlərinə qarşı təcavüzkar siyasətilərini reallaşdırıblar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# KİNO: təqdiri də, tənqidi də baxsaq edərik...

*Necə ki, oxuduğumuz onlarla, yüzlərlə kitab bizi kamilləşdirir, həyatın sirrini-sözünü, düzgün seçimi, düzgün qərar verməyi, yaxşını pisdən ayırmağı, hansı addımın doğru, hansının yanlış olduğunu öyrədirdi, eləcə də baxdığımız onlarla film də həyatımızda eyni funksiyada idi.*






Elə ki, 1990-cı illər arxada qaldı, qarşıdakı illərdə həyatımıza yavaş-yavaş internet, smartfon telefonlar daxil oldu, biz də yavaş-yavaş kinoteatrlardan, klublardan uzaqlaşmağa başladıq. Evlərimizə doğru geri çəkildik. Ta o evlərdən çıxıb film izləmək üçün yol getmədik, buna vaxt ayırmadıq. Başladıq internetdən, telefonlardan film izləməyə. Lakin bu, kinoteatrlarda geniş ekranlarda izlədiyimiz filmlər keyfiyyətdə oldumu? Xeyr, olmadı. Həm də öz kinomuz getdi, yerinə dünyanın hər yerindən olan filmlər gəldi.

* * *

Yeni dünyamıza yeni filmlər qədəm qoydu. Teleseriallar yarandı. Aylarla, illərlə bitməyən seriallar. Həmin seriallar artıq neçə-neçə onilliklərdir ki, bizləri özünə bağlayıb. Biz olmuşuq həmin serialların aludəsi, bəzi hallarda isə xəstəsi. Onlarla mövsümə başlayıb, onlarla mövsümü tamamlayırıq. Dikilirik televizorların qarşısına, saatlarla mentalitetimizə, adət-ənənələrimizə, həyat tərzimizə uyğun olmayan serialları izləmək üçün.

Daha sonra yeni-yeni film proqramları ortaya çıxdı. Başladıq həmin proqramlar vasitəsilə filmlər izləməyə. Baxdıq ki, bu filmlər biz baxdığımız filmlərdən çox fərqlidir. Bu filmlərdə dəhşətlər, vəhşətlər gördük, söyüşlər eşitdik. Bir canlının həyatına qıyıb, əsla narahat olmayan insanları gördük. Həyatımıza, cəmiyyətimizə heç uyğun olmayan mənzərələrlə qarşılaşdıq. Bir vaxtlar ailəliklə film seyr etdiyimiz təqdirdə, bunun artıq əsla mümkün olmadığını dərk etdik. Nəticədə uşaqları bizimlə birlikdə film seyr etməkdən uzaqlaşdırdıq. Belə olanda isə uşaqlarımız daha dəhşətli filmlər izləməyə başladılar. İnternet klublarında davadalaş, vuruşma, ölüm, dəhşət və vəhşət dolu filmlər təqdim olundu övladlarımıza. Uşaqlarımız da həmin filmləri izləmək üçün min bir həvəslə internet klublara yollandılar. Aludəçiyə çevrildilər. Biz də uşaqları evlərimizə yığmaq üçün gedib həmin filmlərin disklərini alıb evə gətirdik və gözümüzün qarşısında "baxın",- dedik. Ta demədik ki, bu uşaq nəyə baxır, niyə baxır?..

* * *

Yeni dünyamızda əslində nə uşaqlarımız, nə də özümüz yaşadığımız həyata uyğun olmayan filmlərə baxmağa başladıq. Öz ölkəmizin istehsal etdiyi filmlər artıq evlərimizdən, telefonlarımızdan uzaq düşdü. Hə, nə olar, adam tək öz filmlərinə baxmaz ki, xarici filmlərə də baxmaq, oxuduğumuz kitablardakı kimi dünya ölkələri ilə də tanış olmaq gərəkdir. Lakin biz bu gərəklilərdən çox gərəksizlərə qapımızı açdıq. Ayağımız kinoteatrlardan kəsildi. Evimizdə oturub dünyanın bütün ölkələrinin filmlərini izləməyə başladıq. Valideyn bir tərəfdə, uşaq bir tərəfdə... Bir də başımızı qaldırıb ətrafa, dünənə baxanda itirdiklərimizin çox olduğunu gördük. Lakin artıq çox gec idi.

İndi nümunə üçün gedib məktəblərimizdə bir sorğu keçirsək, sual etsək ki, kim axırıncı dəfə hansı Azərbaycan filmini izləyib, bu suala neçə şagird və hansı şəkildə cavab verəcək, bu, aydındır. Bu gün yetişməkdə olan gənc nəslin əksəriyyəti filmlərimizi seyr etməyib. Adlarını da bilmirlər. Bəzi intellektual yarışmalar var ki, orada filmlərimizdən göstərilən bir parçanın hansı filmə aid olduğunu iştirakçıların heç biri bilmir. Bu, o deməkdir ki, artıq gənc nəsil filmlərimizdən xəbərsizdir. O qədər gözəl ənənələr, adətlər, mental və ailə dəyərlərini özündə yaşadan filmlərdən çox uzaqdadırlar.



Bütün bunlar üçün isə onlar deyil, biz günahkarıq. Onların böyükləri-ata-anaları olan bizlər. Çünki biz vaxt ayırıb uşaqlarımızla birlikdə bu filmləri izləməmişik. Bunun əvəzinə tanış olmadığımız adətlər çərçivəsinə uyğun film disklərini alıb uşaqlarımıza verib onların bu filmləri izləməsinə səbəb olmuşuq. Sabahısı gün tərbiyələrində bir problem ortaya çıxanda isə, "bu uşaq gedib kimə oxşadı?", "bu nə üçün belə hərəkət edir?",- deyə onları tənbeh eləməyə başlayırıq. Ancaq düşünmək istəmirik ki, övladımıza nə etmişiksə, özümüz etmişik.

Beləliklə, internetdən düzgün yararlana bilməməyimiz, kinoteatrlardan ayağımızı kəsməyimiz, evimizdən filmlərimizi uzaqlaşdırmağımız qarşımızda yeni bir dövr açır. Bu dövrdə itmiş adət-ənənələrimiz, cəmiyyətimizə xas olmayan əlamətlər, uzun illərdən bəri xalqın qoruyub saxladığı dəyərlərdən başqa hər şey görünür. Düşünəndə isə deyə biləcəyimiz tək bir söz var: təəssüf.

* * *

Azərbaycan kinosu xalqımızın maariflənməsində, estetik zövqünün formalaşmasında, milli və vətənpərvərlik hissinin güclənməsində özünəməxsus rol oynamış, milli-mənəvi dəyərlərimizi və adət-ənənələrimizi yaşatmışdır. Milli kino sənətimizin bu cəhətlərini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev demişdir: "Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur... Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir".

Biz bu gün Azərbaycan kinosunu hansı dərəcədə seyr edirik? Bəli, yetişməyimizdə, formalaşmağımızda böyük əhəmiyyətə malik olan kinolarımızı illər öncədən artıq arxivlərə atmışıq. Heç ölkəmizin telekanalları da əvvəlki illərdəki qədər filmlərimizə yer ayırmırlar. İndi telekanallarımızada hind, türk, rus və sair film günləri mövcuddur ki, həmin günlərin məlum saatlarında həmin filmləri seyr etmək olar.

* * *

Dekabrın 28-i dünyada Beynəlxalq Kino Günü kimi qeyd olunur. 1895-ci il dekabrın 28-də Lui və Oqyust Lümyer qardaşları Parisin Kapusin bulvarındakı balaca kafedə ilk dəfə özlərinin çəkdikləri qısametrajlı filmlərin pullu nümayişini təşkil ediblər. Filmlərin arasında 46 saniyəlik "Fəhlələrin Lümyer fabrikindən çıxması" ekran əsəri də var idi.

Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra - 1898-ci il avqustun 2-də isə Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirmişdi. Həmin gün milli kinonun yaranma günü sayılır.

"Azərbaycanfilm"də indiyədək 2000-dən çox müxtəlif növ və janrda film istehsal olunub. Onlardan "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülüb.

2018-ci ildə Azərbaycan kinosunun 120 illiyinin qeyd olunması haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən ölkəmizin hər yerində silsilə tədbirlər keçirilib. Bu il 124-cü ildönümünü qeyd etdiyimiz Azərbaycan kino sənəti ötən müddətdə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçərək, xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynayıb.

* * *

Beynəlxalq Kino günündə yenə də kinodan, filmlərdən danışmağı özümə borc bildim. Xüsusilə də öz kino və filmlərimizdən. Çünki insan ən birinci öz incəsənətinin incə məqamlarına yiyələnməli, sonra dünya incəsənət nümunələrini həyatına daxil etməlidir. Belə isə çoxlarının həyatından çıxardığı, adını unutduğu filmləri xatırlamasını arzulayaq. Gənc nəslə bir-birindən dəyərli filmlərimizə baxmasını, dünən nə olduğunu öyrənməsini diləyək.

Müasir dövrdə də çəkilən gözəl filmlərimiz var. Onları hər kəsin izləməsini arzulayaq. İzləyək ki, onlar arasında yaxşıları təqdir, pisləri tənqid edək. Beləliklə, rejissorlarımız da insanların zövqünün nə tələb etdiyini öyrənmiş olsunlar.

Biz baxmasaq, kim qiymət verəcək onlara? Bəzən milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə xələl gətirən filmlər də çəkilir. Baxaq ki, onlar haqqında öz sözümüzü deyə bilək. Qoymayaq dəyərlərimizə xələl gətirilsin.

Beləliklə, bəlkə kinoya gedək, film izləyək? Bunu hər birimiz evimizdə də edə bilərik. Çünki bugünkü texniki imkanlar buna imkan verir. Taki, istəyək, film izləmək istəyək!

**Mətanət Məmmədova**

# Dəhşətli təyyarə qəzasına CƏMİYYƏTİN BAXIŞI



Dekabrın 25-i Bakı-Qroznı marşrutu üzrə uçan "Embraer 190" sərnişin təyyarəsinin Aktaunun hava limanından 3 km məsafədə qəzaya uğraması nəticəsində 38 nəfər həlak olub, 29 nəfər sağ qalıb. Hər iki pilot da daxil olmaqla 3 ekipaj üzvü həlak olub, iki ekipaj üzvü isə sağ qalıb. Bu hadisə bütün Azərbaycan xalqını dərin kədərə bürüdü. SİA qəza ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib.

**Şəhər sakini Nəzakət Məmmədova:** "Bu qəza çox dəhşətli idi. Mənim fikrimcə, bütün nəqliyyat vasitələri təhlükəlidir. Hadisə baş verəndə verir. Heç kim qəzadan sığortalanmayıb. Mən də təyyarə ilə səyahət etmişəm. Hələ ki, məndə təyyarə qorxusu yaranmayıb. Başına gələn bilər ki, nə dəhşətdir. Elə bir şey yaşamamışam".



**Şəhər sakini Məlahət Abdullayeva:** "Təyyarə qəzasında dünyasını dəyişənlərə Allahdan rəhmət diləyirəm, yaralananlara can sağlığı arzu edirəm. Tezliklə onlar şəfa tapsınlar. Bu, məni də digər azərbaycanlılar kimi çox məyus etdi, çox kədərləndirdi. Biz də bu matəmə qoşulduq və bu çətin duyğuları yaşadıq. Allah kömək olsun, Allah bizim millətimizi qorusun. Prezidentimizin qısa zamanda bu hadisəyə reaksiya verməsi bizi də birləşdirdi. Bizim hər birimiz öz insanımızı, Vətənimizi qorumağa çalışmalıyıq. Tezliklə ümid edirik ki, bu hadisəni törədənlər tapılsın və cəzalandırılsın. Allah bir daha dünyasını dəyişənlərə rəhmət eləsin. Sağlam olanlara da Allah xoş hisslər, duyğular nəsib etsin".

**Şəhər sakini Muğan Əliyev:** "Yeni il ərəfəsində bütün Azərbaycan xalqı üçün belə bir qəzanın baş verməsi məni və ailəmizi çox kədərləndirdi. Buna baxmayaraq xeyirlə-şər həmişə bacı-qardaşdır. Ona görə hesab edirəm ki, qəza ilə bağlı araşdırmalar aparılır, hökumət tərəfindən komissiya yaradılıb. Biz sosial şəbəkələri tez-tez izləyirik. Ancaq lazımsız yazıların yazılması bizi çox düşündürür. Eyni zamanda bu gün Azərbaycanın apardığı daxili və xarici siyasəti yüksək qiymətləndiririk. Belə bir hadisənin də törədilməsi belə hesab edirəm ki, hər şeydə bir fakt var. Araşdırmamış, hər hansı bir rəyin formalaşması, fikir söyləmək tezdir. Bir daha Yeni il və Həmrəylik Günü münasibətilə Azərbaycan xalqını təbrik edirəm. Qalib ölkəyik, biz bunu 44 günlük müharibədə sübut etdik. Düşünürəm ki, belə qəzalar bütün dünya ölkələrində baş verir. Ölənlərə rəhmət diləyirəm, sağ qalanlara can sağlığı arzu edirəm. Hesab edirəm ki, bu məsələ də öz müsbət həllini tapar".

**Şəhər sakini Xatun İbrahimqızı:** "Çox bədbəxt hadisədir, çox təsirləndik. İndi də danışanda təsirlənirəm. Allah rəhmət eləsin ölənlərə, qalanlara da can sağlığı versin. Heç olmayası məsələ idi. Mən də təyyarə ilə səyahət etmişəm. Əfqanıstana, Moskvaya, Daşkəndə uçmuşam. Ona görə çox təsirləndim".

**Şəhər sakini Zeynəb Dadaşova:** "Bu qəza hamıya çox pis təsir etdi. Bunu gözləmirdik. Allah ölənlərə rəhmət etsin, hər kəsə səbr versin. İstəməzdik ki, belə qəza baş versin, amma çox təəssüflər olsun ki, oldu. Mən televiziyada verilən xəbərlərə daha çox inanıram. Qəzanın səbəbi haqqında heç nə deyə bilmərəm. Rəsmi məlumatlara inanıram. Sosial şəbəkələr belədir ki, kim nə istəyir yaza bilir. Amma əsas mənim üçün televiziyadır".

**Şəhər sakini Tahir Məmmədzadə:** "Tələbəyəm. Təyyarə qəzası ilə bağlı xəbəri eşidəndə çox pis oldum. Ölənlərə Allahdan rəhmət diləyirəm, sağ qalanlara da can sağlığı arzu edirəm. Hələ ki, təyyarə ilə səyahət etməmişəm. Məncə, qatar ən təhlükəsiz nəqliyyat növüdür. Təyyarə ilə də gələcəkdə səyahət etmək fikrim var. Qəzanın səbəbi barədə isə bir fikrim yoxdur"

***S. Ağazadə***



Lalə Mehralı

# Virtual epidemiya - şərhçilik

*Məlum təyyarə qəzası barədə şərh verməyən qalmadı bu günlərdə sosial şəbəkələrdə. Pilota pilotluq öyrədən kim, qəzanın baş vermə versiyalarını ələkdən keçirən kim, rəy verən kim, proqnoz verən kim. Hamı özünü borclu hesab edir, hamı eyni cümləri, eyni məlumatı yayımlayır, hamı bir-biri ilə yarışır. Əgər bu məlumata əsaslı rəy vermirsənsə, sübutlu-dəlilli əsaslandırman yoxdursa niyə özünü xəbər saytı, tv kanalı kimi aparmağa məcbur hiss edirsən? Hamı saytları izləyir, son xəbərləri görür, operativ məlumat paylaşan jurnalistlərdən informasiya alır, ən azı saytların sosial şəbəkə kanallarını izləyir, bilir. Nədir bu əsaslı-əsassız xəbər paylaşmaq hərisliyi?*

Virtual dünyanın ən böyük bəlası da məhz budur - özünü hər məsələdə fikir bildirməyə borclu hesab etmək. Ətrafında olanlardan xəbərsiz olması bir çox insanda gərginlik hissinə səbəb olur, bu isə öz növbəsində başqaları ilə münasibətinə təsir edir, hadisələrdən geridə qaldığını, insanların sürətinə yetişə bilmədiyini düşünür. Yuxudan oyanır, görür hamı bir məlumat paylaşıb, o paylaşmayıb. Qıcıqlanır, sözün həqiqi mənasında. Sosial şəbəkədə məlumatının olduğu və ya olmadığı bütün hadisələr barədə fikir bildirmək üçün özünü məsul sayır əksəriyyət.

Çox insanın meyilli olduğu dedi-qodu da beləcə yaranır əslində. Sadəcə, məkan fərqi var. Əvvəllər evlərdən, çayxanalardan, küçə qapılarının önündən ayaq açıb yayılan bu dedi-qodular, indi sosial şəbəkələrdə doğulur, ayaq açır və yeriyir. Hər hadisə baş verəndə bunu müşahidə edirik – hamı sui-qəsdçinin kimliyini, hansı ölkədən sifariş olunduğunu, nəyə görə hücum olunduğunu şərh edir, öz fərziyyələrini yazır, yalan-yalnış məlumatla kütləni ələ alır.

Dedi-qodunun cazibəsi eyni xəbəri yüz minlərlə adamın fərqli şərhlərlə yayması fonunda daha da artır. Bu da öz növbəsində o deməkdir ki, eyni xəbəri hər zəka başqa cür qəbul edir, fərqli analiz edir, çeşidli sayda yayılmasına səbəb olur. Hamının hər hansı bir hadisə barədə fikir bildirməsi, mülahizə yürütməsi, şərh verməsi səni də buna təhrik edir, özünü buna borclu hiss edirsən. Daha sonra başqa bir xəbər, sonra digəri, sonra yenisi. Beləliklə günün boş keçmir, hər gün yeni mövzu var, hər gün gündəm dəyişir və sən hər biri haqqında düşünürək zehnini məşğul edirsən. Yuxu yatmırsan, vaxtında yemirsən, günün kompyuter arxasında, əlində telefon, hadisələrə rəy bildirməklə keçir. Bütün bunların fonunda ailənin, çevrənin, öz problemlərinin fərqində olmursan.

Hər problemin həlli üçün öz peşəkarına ehtiyac var. Məlum məsələdə də dövlət təhlükəsizlik orqanları lazım olanı edəcək, təyyarənin qəzasına nəyin səbəb olduğunu aşkarlayacaq, ictimaiyyətə məlumat veriləcək. Sakitləşin, dayanın, durun. Gözləyin və sadəcə öz işinizlə məşğul olun.



# "Övlad valideynin günahına görə daha çətin imtahan verə bilər"

## MÜNASİBƏT

"Övlad valideynin günahına görə cavab vermir. Övlad valideynin günahına görə daha çətin imtahan verə bilər". Bu sözləri SİA-ya açıqlamasında Təzə Pir məscidinin axundu Mircəfər Əyyubov deyib. O bildirib ki, bu, bir baxımdan bizə ədalətsizlik kimi görünə bilər, lakin əslində Allah-təala dünyanı, insanları yaradıb və bütün insanlara başa salıb ki, siz sınaqdasınız, ikincisi də ictimai həyatla yaşayırsınız: "Bu həyatda zəncirvari səbəb-nəticə qanunları hökm sürür. Bir nəfər deməsin ki, mən özüm bilərəm, bu yalnız mənə aiddir. Hər bir əməlin hər kəsə dəxli var. Hər bir hadisənin hər şeyə təsiri var.

Filosoflar deyirlər ki, payız aylarında ağacdan yerə düşən bir yarpağın belə bütün kainatda təsiri var. Həyatı Allah belə qurub. Həyata, dünyaya, yaşama vahid bir harmoniya hökm sürür. Bunu bir avtomobil, cihaz kimi düşünək. Bir hissə normal işləməsə, vurub başqa hissələri sıradan çıxaracaq. Bir insan da hər hansı savab iş görərsə, hökmən gələcək nəslinə, gələcək nəsillərə təsiri olacaq. Hər hansı bir günah iş görərsə, hökmən gələcək nəsillərə təsiri olacaq".

"Övladın imtahanının çətinliyi Allahın işi deyil, valideynin günahıdır. Valideyn bilməsə idi ki, mənim əməllərim günahdır, onsuz da, günah sayılmır. Günah o işə deyilir ki, iki xasiyyəti olsun. Birinci, o günahı edən qəsdən onu etsin. İkinci, günah olduğunu bilsin. Odur ki, insanlar bunu bildikdən sonra nəsə edirlərsə, hökmən ətrafa təsiri var. Biz neft-qaz yataqlarını gələcək nəsillər üçün saxlamadan istifadə etsək, gələcək nəsillərə bu yataqlardan fayda toxunmasa, bunun təqsirkarı Allah deyil, bizik. Bir insan başqalarının haqqına girirsə, gələcəkdə kimsə onun övladının haqqını yesə, günahkar özüdür. Övlad məcburdurmu pis vəziyyətdə yaşamağa? Məcbur deyil, sadəcə mübarizəni gücləndirməlidir, imtahanı bir az çətin olacaq. İmtahanın da çətinliyinin kompensasiyası elə verilir ki, imtahan nə qədər çətin olarsa, o qədər insan sürətlə inkişaf edir. Allah sistemi belə qurub. Qardaşları Yusif Əleyhissalamı quyuya atdılar. Zahirən bu, çox pis hadisə idi, faciə ilə nəticələnə bilərdi. Amma Yusif Əleyhissalamın quyuya düşməsi səbəb oldu ki, onu quldurlar quyudan çıxarıb Misir bazarında satsınlar. Misirin hakimi onu alsın, saraya gətirsin, gələcəkdə Yusif Əleyhissalam Misirin padşahı olsun. Yəni Allah sistemi elə qurub ki, kimsə cinayət işlətsə, onun təsiri gələcək nəsillərə toxunur. Amma gələcək nəsl imtahandan üzü ağ çıxsa, o daha böyük məqama çatır. Yaxud, kimsə yaxşı iş görsə, gələcək nəslinə onun faydası-dır. Bunun nümunəsi Qurani-Kərimdə həm Yusif Əleyhissalam surəsində var. Yazırlar ki, Yusifin atası Yaqub Əleyhissəlamın evinə bir dilənçi gəldi, Yaqub Əleyhissəlam o dilənçiyə vaxt ayıra bilmədi, imkanı olmadı, Allaha bu, acıq gəldi ki, niyə mənim yoxsul bəndəmə vaxt ayıra bilmədin. Onun nəticəsində Yusif Əleyhissalamı ondan ayırdı. Atanın əməlinin təsiri oldu oğula, oğul da imtahandan üzü ağ çıxdı, Misir padşahı oldu. Yaxud, başqa bir misal olaraq, Əshabi-kəhf ilə əlaqədar olan surədə gəlir. Orada Xızır Əleyhissəlam Musa Əleyhissəlama deyir ki, bu xaraba divarı, evi, tikilini təmir edək. Təmir edib qurtarırlar, Musa Əleyhissəlam səbəbini soruşduqda Xızır Əleyhissəlam buyurur ki, xaraba divar iki yetimə aiddir. Bunun altında qızıl xəzinəsi var. Onların ataları əməli saleh adam olmuşdu, onların xətrinə bu övladlar üçün qızılı saxlayır. Biz tarixdə oxuyuruq ki, həmin iki yetimin atababası yeddinci cədləri idi.

Adətən biz beləyik ki, Allah bizə nə qədər bol ruzi yetirsə, heç vaxt sual vermirik ki, niyə mənə gətirirsən bunları. Amma bir dəfə bəla yetirəndə bu sualı veririk. Bu dünya səbəb-nəticə qanununa tabedir. Ona görə də, bunu ədalətsizlik kimi qəbul etmək fəlsəfi məntiqə malik olmamağın nəticəsidir" - deyə o, əlavə edib.

***Söylü***

# Qara qutu nədir?

***Təyyarə qəzasını eşidəndə ağlımıza gələn ilk şeylərdən biri də qara qutudur. Bəs niyə ağlımıza belə bir şey gəlir? Qara qutu dediyimiz alət haqqında nə qədər fikrə sahibik? Qara qutu olanları necə qeyd edir? Qara qutu nə qədər möhkəmdir? Təyyarə qəzalarında təyyarə parça-parça olsa da, dənizin dibinə batsa da dərhal pilot kabinəsindəki son danışıqları yazan qara qutular axtarılır. Əksər halda qorxunc qəza xarabalığı arasından yararlı tapılan bu qutu sayəsində qəzanın niyə baş verdiyi araşdırılır.***



Bu qutu paslanmayan poladdan hazırlanır. Qutular bundan başqa istiyə və yanğına dözümlü olmaqla birlikdə plastiklə əhatə olunmuş və maye köpüklə təchiz edilmişdir. Qutular o qədər möhkəm olur ki, dənizə düşmüş bir təyyarənin qutuları 7 il sonra çıxarılıb və yenidən dinlənilib. Qeyd edək ki, "qara qutu" deyilən bu əşya əslində, narıncı rəngdə olur. Buna səbəb isə onun rənginə görə tez seçilib tapılmasıdır.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Xalq arasında "qara qutu" kimi tanınan Qara qutu (ingiliscə - Uçuş yazıcısı) uçuş zamanı təyyarədə müəyyən məlumatları qeyd etmək üçün istifadə olunan alətdir.

## Neçə növ qara qutu var?

Bu hava hadisələrinin və qəzaların araşdırılmasını asanlaşdırmaq üçün təyyarələrdə yerləşir. Müxtəlif xüsusiyyətlərə görə siniflərə bölünürlər:

Tip 1: Yalnız kokpit və yer, kokpit və digər təyyarələr və ekipajın özləri arasındakı danışıqları qeyd edən cihaz.

Tip 2: Yalnız uçuş məlumatlarını qeyd edən və audio yazmayan cihaz.

Tip 3: Həm audio, həm də uçuş məlumatlarını qeyd edən cihaz. Qısaca FDR/CVR kimi tanınır. Bu gün ən çox istifadə edilən qara qutu növüdür.

## Qara qutu nəyi qeyd edir?

Qara qutular istifadə etdikləri təyyarədən asılı olaraq dəyişir. Ən ətraflı qeyd böyük sərnişin təyyarələrində aparılır. Kiçik bir təyyarədə qeydə alınacaq parametrlərin sayı və onların rezolyusiyaları təyyarənin istifadə olunacağı sinifdən asılı olaraq dəyişir. 2 nəfərlik akrobatik təyyarədə qeydə alınacaq məlumatlar 15 ilə 20 arasında dəyişir. Böyük təyyarələrdə 88 əsas parametr var. Bu parametrləri əldə etməklə, bir təyyarədə qeyd ediləcək ümumi məlumat aydın olur.

Sərnişin təyyarələrində bu kriteriyaların sayı 250-yə yaxınlaşa bilər. Bu məlumatlar qəza halında araşdırılır və qəzanın səbəbi başa düşülür. Məsələn, pilotun mühərrik gücünü artırdığı hər an Güc qolunun dəyəri mühərrikin güc dəyəri ilə eyni deyilsə, güc qolu ilə mühərrik arasındakı əlaqənin pozulduğunu şərh etmək olar. Bu məlumat kokpit səs yazıları ilə müqayisə edilərək təmin edilir. Əgər nasazlıq aşkar edilərsə, pilot bu barədə yerə məlumat verməyə çalışacaq və bu söhbətlər qara qutuya yazılacaq. Bu qeydlər təkcə qəza zamanı yox, həm də tələbə pilotun uçuş performansının qiymətləndirilməsində də araşdırıla bilər.







ARAŞDIRMA

Aşağıda orta ölçülü bir təyyarədə qeyd edilməli olan 88 parametrdən bəziləri verilmişdir:

Vaxt
təzyiq hündürlüyü
hava sürəti
baş istiqaməti
Sürətləndirmə (şaquli)
atışma vəziyyəti
Roll statusu
Radionu açıb-söndürmək üçün pilotun əl ilə müdaxiləsi
mühərrik gücü
Avtopilot işləyir?
uzununa sürətlənmə
Yanal Nəzarət məlumatları
Sükan pedalı məlumatları
Əsas meydançaya nəzarət səthinin mövqeyi
Əsas yanal nəzarət səthinin mövqeyi
Əsas rulon idarəetmə səthinin mövqeyi
yanal sürətlənmə
Pitching səthinə nəzarət mövqeyi
Kokpitdə flap səthinin seçimi, arxa kənar;
Kokpitdə flap səthinin seçimi, ön kənar;
xarici temperatur
avtopilot statusu
radio hündürlüyü
hücum bucağı
hidravlik təzyiq
yer sürəti
əyləc təzyiqi
DC elektrik paylayıcı statusu

Qara qutu nə qədər davamlıdır?

Qara qutu eyni vaxtda bütün 3 oxda 1000 q qüvvə ilə yarımdalğalı sinusoidal təsirə davamlı olmalıdır. (g=9,81 m/s²)

Qara qutu ən zəif oxunda 6,5 millisaniyə ərzində 1700 q yarımdalğalı sinusoidal təsirə tab gətirməlidir. Qara qutu 0,05 düym2 sahədə 250 kiloqramlıq qəfil təzyiqə tab gətirə bilməlidir (bu, sikkə ölçülü sahəyə düşən 5 ton yükü qaldırmaq gücü deməkdir).

18 düym (45 santimetr) dərinlikdə qum altında işləməyi bacarmalıdır.

1100 dərəcə istilikdə yarım saat işləyə bilməlidir.

3 metr dərinlikdə suda 30 gün işləyə bilməlidir.

Yuxarıda verdiyimiz maddələr qara qutunun istifadəyə icazə almadan əvvəl keçdiyi sınaqların siyahısıdır. Bu sınaqlardan keçməyən qara qutunun təyyarəyə quraşdırılmasına icazə verilmir. Bunlardan başqa bir çox başqa testlər də tətbiq olunur.

***Ayşən Vəli***








# Ermənistanda “debat şousu”: Paşinyan sabiq prezidentlərə qarşı



***Bir neçə gün öncə baş nazir Nikol Paşinyan Ermənistanın keçmiş prezidentlərini Qarabağ münaqişəsi ilə bağlı danışıqlara dair ictimai debatlara dəvət edib. Keçmiş prezidentlər və ya onların nümayəndələri bu təklifi rədd ediblər. Paşinyan özünün “Facebook” səhifəsində onun debata çıxmaq təklifindən qaçan eks-prezidentlərə cavab verib: “Keçmiş prezidentlər deyirlər ki, mənimlə müzakirə edəcəkləri heç nə yoxdur, amma mənimlə 6 ildir ki, uzaqdan, təhlükəsiz məsafədə müzakirə aparırlar. Müzakirə edəcək bir şeyiniz yoxdursa, o zaman təqaüdlərinizi alın və ya məhkəmə iclaslarınıza gedin, nümayəndələriniz, tanışlarınız, dostlarınız, bəzən də xarici tanışlarınızla birlikdə dediyim hər şeyi ciddiyə almayın”. Paşinyan eks-prezidentlər Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyana məsləhət də verib: "Əgər siz mənim dediklərimi müzakirə etsəniz, gəlin və arqumentləri xalqın qarşısında üzbəüz təqdim edin və "diplomatik olaraq" tez cavab verməyin, insanların əksəriyyəti hələ də bu dili başa düşmür".***

Bildirək ki, Ermənistanın baş naziri Nikol Paşinyan 2018-ci ildə Sorosun dəstəyi ilə hakimiyyətə gəldiyi ilk gündən eks-prezidentlərə qarşı cəbhə alıb. Bu, zaman-zaman müxtəlif məhkəmə çəkişmələri, əmlak müsadirəsi, illərlə davam edən cinayət işləri ilə özünü büruzə verib. Əsasən seçkiləröncəsi daha da sərtləşən bu kampaniya əslində siyasi rəqiblərini sıradan çıxarmaq, 2020-ci il müharibəsindən sonra xeyli aşağı düşən reytinqini qaldırmağa çalışma cəhdləri ilə müşayiət olunub. Hədəf kimi daha çox Ermənistanın ikinci prezidenti Robert Koçaryan və üçüncü prezident Serjik Sarkisyan hədəf götürülüb. Düzdür, son iki şəxsin də erməni siyasi arenasında o qədər də çəkisi qalmayıb və 2020-ci il müharibəsi bu şəxslərin canına vəlvələ salıb. Məsələ burasındadır ki, Qələbədən sonra Azərbaycan tərəfi haqlı olaraq Koçaryan və Sarkisyanın müharibə cinayətlərində ittiham edir, onların ədalət məhkəmələrində cavab verməsini tələb edib. Qarabağ separatçılarının həbsindən sonra isə bu iki şəxsin yuxuları ərşə çəkilib, iki ölkə arasında imzalanacaq sülh sazişinin belə bir reallığın onlar üçün də yaranmasından qorxduqları üçün ölkədəki ruporları, xaricdəki dəstəkçiləri vasitəsilə hər vəchlə sülh danışıqlarını baltalama yolunu tutublar. Bununla yanaşı, Nikol Paşinyan da bu məsələdən istifadə edərək, Serjik və Roberti hər dəfə hədəf göstərir, bu gün Ermənistanın üzləşdiyi çətinliklərin əslində bu siyasilərin günahı olduğunu deməkdən çəkinmir. Elə baş nazirin 1994-cü ildən bu yana Azərbaycanla aparılan danışıqların əsas mövzusunun Qarabağın Azərbaycana qaytarılması olduğu barədə açıqlaması erməni siyasi arenasında bomba effekti yaradıb. Maraqlıdır ki, Paşinyan bu dəfə Koçaryan və Sarkisyandan başqa müəllimi, Ermənistanın sabiq prezidenti Levon



Ter-Petrosyan da hədəf kimi göstərib. Əslində 90-cı ildən bəri Azərbaycan ilə Ermənistan arasında baş verənləri Paşinyan da yaxından izləyib və hadisələrin hansı şəkildə cərəyan etməsini dəqiq xronoloji ardıcıllıqla bilir. Çünki həmin vaxt baş nazir jurnalistika fəaliyyəti ilə məşğul idi. O, çox gözəl bilir ki, 44 günlük müharibəyə qədər heç vaxt Ermənistan rəhbərliyinin, onun prezidentlərinin və bu dövlətin beynəlxalq havadarlarının Qarabağı Azərbaycana qaytarmaq fikri olmayıb. Əksinə, beynəlxalq səviyyədə hədəf ondan ibarət olub ki, 2020-ci ilin 27 sentyabr tarixinə qədər mövcud olan status-kvo onilliklərlə saxlanılsın, Azərbaycanda nəsil dəyişsin və işğal edilmiş torpaqlar unudulsun. Ardınca isə hər hansı bir formada Qarabağ və ətraf rayonlar Ermənistan ərazisi kimi rəsmiləşdirilsin. Elə isə Paşinyan nədən məsələləri qəsdən qarışdırır, hamıya gün kimi aydın olan ən yeni tarixi təhrif etməyə çalışır, məqsəd nədir?

Bəli, bu yerdə xatırlatmaq gərəkdir ki, artıq Ermənistanda seçkilərə bir il qaldı - 2026-cı il seçkilər ilidir. Ölkədə Paşinyanın qarşısına çıxa biləcək, onu məğlub edəcək elə ciddi bir siyasi qüvvə yoxdur. Amma Nikolun reytinqi artıq 2018-ci ildəki kimi 80 faizin üzərində deyil. Axırıncı seçkilərdən sonra baş nazirin reytinqinin 60-70 faiz arasında tərəddüd etdiyi bildirilir. Paşinyanın dəstəkçiləri olan Qərb institutları seçki texnologiyalarını çox gözəl bildiklərindən ona məsləhət verirlər ki, bu reytinqlə seçkiyə getmək risklidir. Ona görə də baş nazir bu yalan üzərində qurulmuş debat şousundan istifadə edərək elan edilməmiş seçki kampaniyasına start verdi. Paşinyan istəyir Qərbin onun üçün hazırladığı ssenari ilə bir daha sübut etsin ki, əslində Qarabağın itirilməsinin əsas səbəbkarı ona qədər hakimiyyətdə olan siyasi qüvvələrdir. Paşinyanın qoyduğu məsələ yalan və qıcıqlandırıcı olsa da, mahiyyətdə bir həqiqət payı var ki, Sarkisyan-Koçaryan hakimiyyəti Azərbaycanın razılaşdığı, münaqişənin dinc yolla mərhələli həllinə razılaşıb, heç olmasa Qarabağa status ala bilərdi. Əslində Paşinyan məhz bu arqumentə əsaslanaraq eks-prezidentləri cəmiyyət qarşısında bir qədər də gözdən salmaq istəyir.

Bu isə deməyə əsas verir ki, baş nazirə hansısa gizli bilgilər və məlumatlar sızdırılıb və bu dəfə Koçaryan-Sarkisyan cütlüyünü ciddi təhlükə gözləyir. Eyni zamanda, qeyd etmək yerinə düşər ki, bu açıqlama və debat təklifləri ilə ATƏT-in Minsk qrupunun buraxılması məsələsi artıq ciddiləşir. Hadisələrin gedişatı isə göstərir ki, növbəti il Ermənistanın siyasi arenasında ciddi dəyişikliklər olacaq. Uzun müddətdir siyasi meyitə çevrilən Sarkisyan və Koçaryanın dövlətə xəyanət ittihamı ilə üzləşə biləcəyi də ehtimal edilir.

**Sevinc Azadi**





**Andrey Fyodorov: Qərb Ermənistanı silahla təmin etməyə davam etsə də, Ermənistanın qarşıdakı illərdə Azərbaycana qarşı hər hansı revanş cəhdi (əgər bu cür risklərdən danışırıqsa) mümkün deyil**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiya XİN keçmiş müavini: "Cənubi Qafqaz 2025-ci ildə rahatlıq gözləməməlidir"

Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov 2025-ci ildə Ermənistan-Azərbaycan nizamlanmasının perspektivləri haqqında "Moskva-Baku" portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Andrey Vladimiroviç, 2025-ci ildə Cənubi Qafqaz üçün nəyisə yaxşılığa doğru düzəltmək olarmı? Qərbin regiona təzyiqləri azalacaqmı, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması şansı varmı?**

- Düzünü desəm, düşünürəm ki, həqiqətən heç nə yaxşılığa doğru dəyişməyincə, Cənubi Qafqaz müxtəlif qüvvələrin mübarizə zonası olaraq qalacaq. Ermənistan-Azərbaycan nizamlanmasında yarımçıq qalan məsələlər isə 2025-ci ildə də sürünəcək. Bu birincisi.

İkincisi, Ermənistanda vəziyyətin necə inkişaf edəcəyini diqqətlə izləməliyik. Bu il biz İrəvanın KTMT-dən kəskin şəkildə uzaqlaşdığını, bu strukturdan çıxmağa eyham vurduğunu və Avropa İttifaqı ilə yaxınlaşma ideyasını gördük. Bu isə Rusiya-Ermənistan münasibətlərinə və bütövlükdə regiondakı vəziyyətə təsir etməyə bilməz.

Bundan əlavə, Gürcüstanda vəziyyət ağır olaraq qalır. Və burda vəziyyət dekabrın 29-dan, yeni prezidentin andiçmə mərasimindən sonra partlaya bilər. Bu, hazırkı prezident Salome Zurabişvilinin postunu tərk etmək fikrində olmadığını, bu yaxınlarda keçirilən seçkilərin nəticələrinə etiraz etdiyi üçün hansısa şura yaratmaq və yeni parlament seçkiləri təşkil etməyi planlaşdırması fonundadır.

Hər halda, görünür, gələn ildə Gürcüstanda hər hansı sabitlik gözləmək lazım deyil, xüsusən də Qərb bu ölkəyə qarşı sanksiyaları gücləndirsə.

2025-ci ildə Türkiyədən də çox şey asılı olacaq, o, bir tərəfdən, şübhəsiz ki, Cənubi Qafqazla maraqlanır, digər tərəfdən, mənim fikrimcə, gələn il Suriya, Liviya, Misir və digər ölkələrlə bağlı problemləri ilə həddən artıq yüklənəcək. Ona görə də görünür, Cənubi Qafqazda baş verənlərə bir gözü ilə baxacaq, amma yenə də o biri gözünü Zaqafqaziyaya bağlamalı olacaq.

**- Amerikanın yeni hökuməti dövründə siyasət Cənubi Qafqazdakı vəziyyətə necə təsir edəcək?**

- Məncə, ABŞ Cənubi Qafqaza əhəmiyyət verməyəcək. Bəli, müəyyən dərəcədə deyə bilərik ki, məhz bu "Cənubi Qafqaza qədər yox" siyasəti region üçün müsbət amilə çevriləcək. Amma ABŞ-ın ümumiyyətlə regiona hansısa səviyyədə təsir göstərməyə cəhd etməyəcəyini düşünmək də mümkün deyil.

**- Aİ-nin Ermənistana dəstəyi, 2025-ci ildə hansısa şəkildə dəyişəcək?**

- Yox, dəyişməyəcək. Yalnız güclənəcək. Avropa İttifaqının regiondakı planları daha da aktiv olacaq. Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşmasına və Aİ-nin müxtəlif mexanizmlərinə daxil edilməsinə dəstək davam edəcək. Bu tendensiya müəyyən edib ki, bu prosesdə əsas Aİ ölkəsi var–Fransa. Avropa İttifaqının yeni sədri olacaq Polşanın Ermənistanla xüsusi münasibəti olmadığı üçün Paris burada kifayət qədər sərbəst olacaq.

**- Ermənistanın baş naziri Azərbaycanla sülh sazişi ilə bağlı son həftələr kifayət qədər müsbət bəyanatlar verir. Bu nə ilə bağlıdır?**

- Bu, Ermənistanın Azərbaycanla sülh danışıqlarını ləngitməsi üçün ümumi taktikadan başqa bir şey deyil. Yəni, Nikol Paşinyan Azərbaycan iddiaları ilə razılaşan kimi görünür. Amma sonda ümidverici deyilən şeyi eləmək deməк deyil. Ermənistanın baş naziri müsbət taktikalardan istifadə edir və eyni zamanda erməni milli maraqları kimi gördüyü şeyi müdafiə etməyə çalışır.

**- Belə çıxır ki, Paşinyanın bu cür sülh xarakterli bəyanatları doğrudan da heç nə demək deyil?**

- Ümumiyyətlə, bəli. Bugünkü vəziyyətdə Ermənistanın tələsməyə yeri yoxdur. İndi o, öz məsələlərini Fransa və ABŞ ilə yeni xarici qarşılıqlı əlaqə yolu ilə sakit şəkildə həll etməyə çalışır. Nisi desək, Ermənistan Respublikasının həyatı, İrəvanın fikrincə, sülh müqaviləsindən asılı deyil.

**- Gələn il Azərbaycan üçün çağırışlar baxımından daha asan ola bilərmi?**

- Bu, çağırışlar adlandırdığınız şeydən asılıdır. Ermənistanla münasibətlərə gəlincə, təbii olaraq problemlər qalmaqdadır. Lakin bu baxımdan 2025-ci il ölkələr arasında qalan əsas məsələlərin kifayət qədər uzun müddət naməlum vəziyyətdə qalacağı "qəribə birgəyaşayış" dövrü olacaq.

**- Bu ay Ermənistanın Qərb dövlətləri ilə hərbi əməkdaşlıqda təmasları intensivləşib... Rəsmi Bakı Qərbin dəstəyi ilə Ermənistanın hərbiləşdirilməsi təhlükəsini mütəmadi olaraq qeyd edir.**

- Mən bunu Ermənistan ordusu üçün sağ qalmaq cəhdi adlandırardım. Çünki onun son iki-üç ildə mövcud olduğu formada onun qarşısında duran məsələləri həll etmək iqtidarında olmadığı göz qabağındadır. Bir çox cəhətdən köhnəlmişdir. Aİ isə respublikanı silahla təmin etməyə davam edəcək. Amma Ermənistanın qarşıdakı illərdə Azərbaycana qarşı hər hansı revanş cəhdi (əgər bu cür risklərdən danışırıqsa) mümkün deyil, belə ki, Qərb Ermənistanı silahla təmin etsə də, Ermənistan ordusunun bu revanşa imkanı yoxdur.

**-Trampın dövründə Azərbaycan-Amerika münasibətləri asanlaşacaqmı? Axı 2024-cü il Azərbaycan-Amerika münasibətləri üçün çox çətin il oldu.**

- Qismən. Amerikalı həmkarlarım mənə deyirlər ki, niyə Bakıda Putinlə Tramp arasında görüş olmasın. Söhbət etdiyim insanlar praqmatikdir. Onların çevrələrində bu ideya müzakirə olunur: variantlar, onun təsiri, nəticələri. Əgər belə bir görüş təşkil olunarsa, bu, həqiqətən də Azərbaycanla ABŞ arasında münasibətlərin normallaşmasına təsir göstərə bilər. Onlar Bakı platformasının seçilməsini Avropa İttifaqı daxilində qısqanclıq yaratmayacağı ilə əsaslandırırlar. Rusiya üçün isə bu, etibar edilə bilən platformadır.

**Tərcümə - Elçin Bayramlı**



# Market alış-verişlərini uşaqla necə edə bilərik?

***Dəfələrlə şahidi oluruq ki, uşaq alış-veriş mərkəzlərində ayağını yerə döyüb ağlaya-ağlaya valideynindən nəsə almasını istəyir, çıxmaq istəmir, nəyisə göstərir. Bu hər yaş qrupuna aiddir, əsasən körpəlikdən məktəbəqədər dövrdə, hətda bəzən 8 yaşında uşaqlarda da bu hal yaşanır. Valideynləri narahat edən bütün problemlərin real həlli mütləq var. Bəs mütəxəssislər bu haqda nə deyir? Belə olan halda valideyin nə etməli? Market alış-verişlərini uşaqla necə edə bilərik? SİA bu suallara cavab olaraq psixoloqlar Vüsalə Əmiraslanova və Aytən Ələkbərovanın fikirlərini öyrənib.***

**Psixoloq Vüsalə Əmiraslanova:** "Market alış-verişlərini uşaqlara, ümumiyyətlə, daha erkən yaşlarından alışdırmaq məsələsi vacibdir. Erkən yaşlarında, yəni 4-5 yaşında artıq uşağa hesablamağı öyrədə bilirik, həm nəyi alıb, nəyi almamağı öyrədə bilirik. Bu şəkildə uşaqda marketdə nələr alına bilir, evə nələr lazımdır və sair kimi fikirlər formalaşır. Biz bəzən marketə gedəndə ev üçün bazarlıq edirik, amma uşağa rahat şərait yaradırıq ki, nə istəyir seçsin. Düzdür, bu onun beynində "marketdə istədiyini götürə bilər" kimi anlayış yaradır. Ona görə də, çalışmaq lazımdır ki, onunla əvvəldən müzakirə edək. Birlikdə həmin bölmələrə gedib o əşyaları axtarmaq vacibdir. Bu şəkildə də həm övladımıza alış-verişi öyrədirik, eyni zamanda da büdcəni formalaşdırırıq. Amma tam yaş olaraq 7-9 yaşlarında daha yaxşıdır. Bu yaşlarda artıq uşaqlıq dövrünü keçirik, yavaş-yavaş yeniyetməlik dövrünə yaxınlaşırıq. Onlar üçün bunu etmək uğurdur, fəxrdir deyə daha çox maraqlarına səbəb olur. Sonunda da əgər biz onları təkcə marketə göndəririksə, geri qayıdanda onları tərifləyiriksə, mükafatlandırırıqsa, bu, onlara daha çox həzz verir".



**Psixoloq Aytən Ələkbərova:** "Övladlarımızla alış-verişə getməkdən ötrü əvvəlcə övladımızla söhbət edərək, onun nə istədiyini müəyyənləşdirməliyik. Onun nə istədiyini müəyyənləşdirdikdən sonra isə istədiyini alıb daha sonra öz alış-verişimizi rahatlıqla edə bilərik. Çünki övladımızla söhbəti aparmadığımız və onun fikirlərini öyrənmədiyimiz zaman özümüzdə belə qıcıqlanmalar yaranır. Hövsələdən çıxırıq, cizgilərimiz dəyişir, uşağın qolundan tutub silkələməyə başlayırıq. Hətta özümüzdən asılı olmayaraq ictimaiyyət içində uşağımıza qarşı azacıq da olsa fiziki münasibətlərimizi göstərə bilirik. Ona görə də, öncədən övladlarımızın nə istədiyini müəyyən etmək, marketdən öncəki söhbət mütləq lazımdır. Yaxud da, uşaqla oturarkən əlimizdəki pulu göstərərək ona izah etməliyik ki, bu pulla ona da hədiyyə almaq istəyirik. Uşağın şüuraltında formalaşan məqam olur ki, gələcəkdə planlı şəkildə alış-veriş etməyi və pulundan müəyyən miqdarını kənara qoymağı öyrənir. Bu baxımdan da ən gözəl üsullardan biri kimi biz onlara tətbiq etmişik, tətbiq edib də müsbət nəticələr əldə etmişik. O nəticələrə əsasən bu gün rahatlıqla sizə bu intervyunu verə bilirəm".



***Söylü Ağazadə***

# Ən təhlükəsiz nəqliyyat vasitəsi hansıdır?



*“İnsanların kütləvi şəkildə daşınmasının, bəlkə də, ən böyük problemlərindən biri də insan riskinin aşağı salınmasıdır”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Aslan Əsədov deyib. O bildirib ki, qatarla toqquşmada da böyük fəsadlar ola bilər, avtobusla sərnişin daşımada da, təyyarə ilə uçuşda da böyük fəsadlar ola bilər: ”Ona görə də, burada qəzadan sığortalanma yox, daha çox risklərin aşağı salınması və təhlükə zamanı insanların daha çox sağ qalmasından söhbət gedə bilər.*

İndi təyyarə qəzasının motivləri gedir. Burada təbii və digər yollarla qəzadan söhbət getmir. Araşdırma aparıldığı, istintaq getdiyi üçün bəzi məlumatları biz kütləvi informasiya vasitələrindən və sosial şəbəkələrdən əldə edirik. Mövcud əldə etdiyimiz məlumatlara əsasən hal-hazırda vəziyyət quş sürüsündən, dumandan ibarət deyil. Ona görə də, araşdırma gedir.

Buradan belə aydın olur ki, xüsusi olaraq şəxsi nəqliyyat vasitələrindən istifadə daha az tələfata yol aça bilir, daha az insan dünyasını dəyişə bilər. Nəqliyyat vasitəsin-



## MÜNASİBƏT

də neçə nəfər varsa, o sayda insanın dünyasını dəyişmə, yaxud sağ qalma ehtimalı var. Amma böyük şəkildə olarsa, risk də çox olar. Şəxsi avtomobillərlə hərəkət etmək, o cümlədən avtobuslarla hərəkət etmək daha məqsədəuyğun olar, nəinki iri həcmli nəqliyyat vasitələri ilə daşınma. Bu da ümumi olaraq riski artıra bilər. Daşınmanın bir növü də var ki, bu, gəmi ilə sərnişin daşımadır. Gəmi ilə sərnişin daşımada isə əsas çətinliklərdən birincisi insanların uzun vaxt sərf etməsi, suda qala bilmələridir. Qəza anında belə daha çox fəsad ola bilər. Bunun üçün bu və digər formada hadisələrin axarını gözləmək olar”.

**Söylü Ağazadə**

## BAŞSAĞLIĞI

Ə.D.Məlikov adına “Binəqədi Tibb Mərkəzi” PHŞ-nin direktoru Müşfiq Mirzəyev və kollektivi Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılovun

**ANASININ**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

* * *

Binəqədi rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Fədai Hacıyev və kollektivi Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılovun

**ANASININ**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

## Fatih Terim Ərəbistan klubunda – 6 aya 1,6 milyon dollar qazanacaq

Türkiyəli tanınmış futbol mütəxəssisi Fatih Terim yenidən işinin başına qayıdıb. Səudiyyə Ərəbistanının “Əl-Şəbab” klubu 71 yaşlı təcrübəli mütəxəssisi baş məşqçi postuna gətirib. Klubun rəsmi səhifəsində bununla bağlı video paylaşılıb və “Salam, İmperator” yazılıb. ”La Gazzetta dello Sport” nəşrinin yazdığına görə isə, Terim ilkin mərhələdə 6 aylıq müqavilə bağlayıb. Sənəd 1 illik uzadılmanın mümkünlüyünü də nəzərdə tutur. Müqaviləyə əsasən, ”İmperator” ləqəbli Terim ilk 6 ayda 1,6 milyon dollar maaş alacaq.



## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!

*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*



1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## “Bayrağımızı yeni zirvələrə qaldırmaq üçün yorulmadan çalışacağıq”



### İDMANÇI FİKRİ

**Məlumdur ki, Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxış edib. Ölkə başçısı çıxışında 2024-cü ilin Azərbaycan idmanı üçün uğurlu olduğunu, Azərbaycan idmançılarının beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etdiyini, 1700-ə yaxın medal qazanıldığını bildirmişdir. Bəs, ölkəmizdə idman hansı səviyyədə inkişaf edib? SİA mövzu ilə bağlı Paris-2024 Yay Paralimpiya Oyunlarında qızıl və gümüş medal qazanan Lamiyə Vəliyevanın fikirlərini öyrənib. Onun sözlərinə görə, cənab Prezident İlham Əliyevin 2024-cü ilin idman yekunlarına dair çıxışında vurğuladığı kimi, 1700-ə yaxın medalın qazanılması ölkəmizin idman sahəsindəki uğurlarını və gücünü bir daha sübut edir: “Biz idmançılar olaraq bu nailiyyətlərin bir parçası olduğumuz üçün qürur duyuruq”.**

Lamiyə Vəliyeva sözlərinə belə davam edib: “Yeni nəsil idmançıların yetişməsi və Azərbaycanın idman dövləti kimi mövqeyinin möhkəmlənməsi bizim üçün böyük motivasiyadır. Bu dəstəyi hiss edərək çalışacağıq ki, qarşıdakı illərdə bayrağımızı ucaldıb, dövləti-mizi layiqincə təmsil edək.

Biz idmançılar olaraq bu etimadı doğrultmaq və Azərbaycanın idman bayrağını yeni zirvələrə qaldırmaq üçün yorulmadan çalışacağıq. Qarşıda məni İslam Həmrəyliyi Oyunları kimi mühüm yarışlar gözləyir, və ümüd edirəm ki orada da Azərbaycanımı layiqincə təmsil edəcəm”.

**Ayşən Vəli**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700